www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21-23 iyul 2018-ci il Şənbə № 156 (7045) Qiyməti 60 qəpik

**Xəbər**

## Paytaxtda içkili sərnişinlərin avtobuslara girişinə qadağa qoyuldu

yazısı səh.14-də

# PAŞİNYAN ÜÇÜN 3 YOL - İKİSİ MOSKVAYA, BİRİ BAKIYA APARIR

Kremlin Gümrü xəbərdarlığının ardınca Peterburq sınağı; Moskvadan Ermənistan rəhbərliyinə göndərilən siqnallar artır; **Rusiya nəşri:** "Erməni baş nazir ölkəsini Qərb üçün satışa çıxarsa..."



yazısı səh.8-də

## Yasamaldakı "intihar vadisi": 18 yaşlı qızın özünəqəsdinin mübhəmləri

Nərgiz Vəliyevanın sosial şəbəkə üzərindən intihara sürükləndiyi iddia edilir; 6 ay əvvəl həmin ərazidə daha bir Nərgiz özünü binadan atmışdı...

yazısı səh.5-də

**Gündəm**

### Azərbaycan-Fransa əlaqələrində mühüm tarix



Prezident İlham Əliyev Parisdə yüksək səviyyəli görüşlər keçirdi; ekspertlər səfəri yüksək dəyərləndirdi; ermənilər narahatdır...

yazısı səh.4-də

### Azərbaycanın ələ keçirdiyi erməni diversantla bağlı mühüm gəlişmə

yazısı səh.9-da

### Milli Mətbuat Günü ilə bağlı tədbirlər keçirildi, jurnalistlər mükafatlandırıldı

yazısı səh.3-də

### Osman Gündüz sosial şəbəkə terrorçularından qorunmağın yollarından danışdı

yazısı səh.14-də

### Rusiyalı politoloq erməniləri hədələdi: "Bu addıma getsəniz..."

yazısı səh.11-də

### 70 yaşlı Ramiz Əzizbəyli: "Heç kimdən heç nə gözləmirəm"

yazısı səh.15-də

### Əsirlikdəki Dilqəm Əsgərovun oğlu: "Atamı ermənilər zəhərləyib"

yazısı səh.5-də

### Ailə quracağı qadına qarşı dələduzluq edənə 8 il cəza verildi

yazısı səh.15-də

### Gənc bəstəkar-müğənni Murad Arif: "Kişinin sırğa taxmasına pis baxmıram"

yazısı səh.13-də

### Azərbaycanda və dünyada pensiya yaşı niyə artırılır?

yazısı səh.15-də




### Ölkənin baş onkoloqundan "Yeni Müsavat"a ilginc açıqlamalar

yazısı səh.7-də



*Kamran Əsədov:*

### "6 illik təhsil haqqını geri qazanmaq üçün 10 il işləmək lazımdır"

yazısı səh.10-da




### Azərbaycanlı deputatdan Adnan Oktar haqda sərt sözlər

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 156 (7045) 21 iyul 2018



# Azərbaycan bayrağını öpən gənc həbs edildi

**Güneyli fəal Camal Musəvinejada həbs cəzası verilib. Axar.az xəbər verir ki, İran İslam Respublikası əleyhinə təbliğat aparmaqda günahlandırılan güneyli milli fəal Şərqi Azərbaycan ostanının Apelyasiya Məhkəməsinin qərarı ilə bir il həbs cəzasına məhkum olunub.**

C.Musəvinejada qarşı ittihamlar arasında millətçilik, Azərbaycan Respublikasının bayrağını öpmək və ona ehtiram göstərmək, milli düşüncələrə malik olmaq, 1945-ci il hadisələrini dəstəkləmək, Seyid Cəfər Pişəvəriyə ehtiram, sosial şəbəkələrdə milli zəmində fəaliyyət göstərmək və s. var.

Qeyd edək ki, məhkəmə Camal yMusəvinejadın sosial mediadakı fəaliyyətlərinə və şəxsi kompüterində saxlanılan materiallarına, o cümlədən Azərbaycan bayrağını öpərkən çəkilən bir fotosuna əsaslanaraq həbs qərarı çıxarıb.

# Qazaxıstanın məşhur idmançısı qətlə yetirildi

**İyulun 19-da günorta saatlarında, Qazaxıstanın Almatı şəhərində fiqurlu konki sürmək üzrə dəfələrlə olimpiya, dünya, 4 qitə çempionu olan Denis Ten xuliqanlıq zəminində quldurluq edən cinayətkarlar tərəfindən qətlə yetirilib.**

Turkustan.info xəbər verir ki, naməlum cinayətkarlar şəhərin mərkəzində yol kənarında daynan Lexus maşının güzgülərini və şüşəsini çıxarıb aparmaq istəyərkən, Denis hadisə yerinə çatıb, onlarla əlbəyaxa olub. Cinayətkarlar bıçaqla ona iki zərbə yetirərək, yaxınlıqdakı kolluğa atıblar. Yoldan keçən şəhər sakinləri təcili yardım maşını çağırıblar, xəstəxanaya çatdırılan Denis yol boyu 3 litr qan itirib. Bir neçə saat ərzində Denisin həyatını xilas etmək istəsələr də, cəhdləri boşa çıxıb.

**Qazaxıstan prezidenti Nursultan Nazarbayev Denis Tenin faciəli şəkildə həlak olmasına görə başsağlığı verib:** "Denis bacarıqlı idmançı olmaqla yanaşı, həm də istedadlı, yaradıcı bir gənc idi. Onu dünyanın bir çox ölkələrində tanıyırdılar, o, vətənpərvər bir qazaxıstanlı idi. Denisin işıqlı xatirəsi qəlbimizdə yaşayacaq".

Günün günorta çağı, gediş-gəlişin çox olduğu mərkəzi küçələrin birində Denis Tenə hücum edib, onu öldürən quldurların axtarışı davam etdirilir. Denisin ölümündən sonra sosial şəbəkələrdə Qazaxıstan Daxili İşlər Nazirliyini və naziri istefaya çağıran şüarlar səslənir.

# Baş məşqçidən xanım prezidentə şok sözlər

**Rusiyada keçirilən dünya çempionatında finala çıxaraq gündəm yaradan Xorvatiya millisinin baş məşqçisi Zlatko Daliç ölkə siyasətçilərinə məktub yazıb. Fanat.az xəbər verir ki, o, ad çəkmədən mundialdakı bütün oyunlarını izləyən, dünya çempionatı boyunca sosial medianın əsas müzakirə mövzularından birinə çevirilən Xorvatiyanın prezidenti Kolinda Qraber Kitaroviçi hədəf alıb.**

"Bütün siyasətçilərə səslənirəm, üzərimizdən mükafat oyunu oynamayın. Xalqımızı səfalət və ümidsizlik cəhənnəminə itələyən sizlərsiniz" - Zlatko Daliç yazıb. Baş məşqçi məktubunda yığmaya ayrılan bütün mükafatları bağışlayacaqlarını bildirib: "Alacağımız 23 milyon avro mükafatı uşaq qurumlarına bağışlayacağıq. Avropa Birliyinin ən kasıb ölkəsiyik. Pis və daha əvvəl mütəşəkkil cinayətkarlığa qarışmış insanlar bizi idarə edir. Xalqımızın əksəriyyəti gündəlik ehtiyaclarını ödəyə bilmir. Səhiyyə sistemi çöküb, məhkəmələr çirkli pulları yumaqla və saxtakarlıqları təmizləməklə məşğuldur. Minlərlə km sahilimiz olsa da, heç vaxt dəniz görməmiş uşaqlarımız var".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Atası həbsdə olan gənc Bakıda quldurluq edib

**Bakıda yanacaqdoldurma məntəqəsinə basqın edən gənclər hakim qarşısına çıxarılıb. Onların hər ikisi əməlindən peşman olduqlarını, kirayə pulunu ödəmək üçün bu cinayəti törətdiklərini deyiblər.**



Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində yanacaqdoldurma məntəqəsinə basqın etməkdə təqsirləndirilən 1997-ci il təvəllüdlü Sərxan Mailli və 1995-ci il təvəllüdlü Niyaməddin Mustafayevin cinayət işi üzrə məhkəmə iclası keçirilib.

Hakim Şəkər Məmmədovanın sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı ittiham aktını elan edib. İttihama görə, quldurluq hadisəsi ötən ilin dekabr ayında Bakının Xətai rayonu, Nobel prospektində yerləşən yanacaqdoldurma məntəqəsində baş verib.

Məntəqənin istirahət otağına daxil olan şəxslər orada işləyən İsmayıllı rayon sakini Mehman Cabbarovu bıçaqla hədələyərək pul tələb ediblər. Mehman Cabbarov üzərində olan 552 manat pulu onlara verdikdən sonra naməlum şəxslər yanacaqdoldurma məntəqəsini tərk ediblər. Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluq əməlini törətməkdə şübhəli bilinən Biləsuvar rayon sakini, əvvəllər məhkum olunmuş S.Mailli və Kürdəmir sakini N.Mustafayev tutulublar.

Elan olunmuş ittiham üzrə hər iki şəxs özünü təqsirli bilib və əməlini etiraf edib. Prosesin davamında zərərçəkmiş Mehman Cabbarov ifadə verib. Zərərçəkmiş hadisədən əvvəl təqsirləndirilən şəxslərdən yalnız Sərxan Maillini tanıyıb. O, hadisə baş verən gün yaşananları belə danışıb: "Yanacaqdoldurma məntəqəsində gecə istirahət edən zaman üzü maskalı iki nəfər otağa daxil oldu. Mənə hədə-qorxu gəldilər. Mən istirahət otağında yatmışdım. Əvvəl biri içəri daxil oldu, sonra digəri. Birinci içəri daxil olan şəxsin əlində bıçaq var idi. Pul tələb etdilər. Bıçaqla bədənimi də cızdılar. Mən də qorxduğum üçün cibimdə olan 552 manat pulu onlara verdim. Pul canımdan artıq deyildi. Sonra hər iki şəxs otaqdan çıxıb qaçdılar. Mən də polisə məlumat verdim".

Dəymiş zərərin ödənildiyini deyən zərərçəkmiş şikayət və tələbinin olmadığını bildirib.

**Təqsirləndirilən Niyaməddin Mustafayev dindirilən zaman cinayət əməlini etdiklərini etiraf edib. Söyləyib ki, həmin pulla kirayə haqqını ödəyib:** "Basqın təklifini Sərxan etdi. Pula ehtiyacımız vardı. İndi isə əməlimdən peşmanam".

Niyaməddin Mustafayevin sözlərinə görə, hazırda atası da həbsdədir.

Məhkəmə iclası iyulun 24-də davam etdiriləcək.

Bildirək ki, hər iki şəxs Cinayət Məcəlləsinin 181.2.1-ci (quldurluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham edilir.

**❑ İlkin MURADOV, Musavat.com**

# "Səba" şirkəti istehlakçılara müraciət edib

**"Səba" şirkəti istehlakçılara dondurulmuş toyuq məhsullarını alarkən diqqətli olmaları barədə xəbərdarlıq yayıb. Şirkətin ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatında bildirilir ki, satış təmsilçiləri bəzi marketlərdə dondurulmuş toyuq ətinin əmtəə görünüşünün korlandığını müəyyən ediblər.**

"Marketlərdən əməkdaşlarımıza verilən məlumata görə, elektrik enerjisinin verilməsində yaranmış məhdudiyyətlər bəzi marketlərdə soyuducuların sıradan çıxmasına səbəb olub. Həmin müddətdə anbarlarda və soyuducularda olan dondurulmuş toyuq əti məhsullarının buzu açılmış, daha sonra soyuducular işə düşdükdə isə məhsullar yenidən donmuşdur. Bu hal məhsulun xarab olmasına səbəb olmasa da, əmtəə görünüşünü korlamışdır. Hazırda satış təmsilçilərimiz bu məhsulları bütün marketlərdən geri yığırlar" - məlumatda qeyd edilir.




**Şirkət bu məhsulların satışa çıxarılmaması və piştaxtalara qoyulmaması barədə marketlərə xəbərdarlıq edib.** "İstehlakçılardan xahiş edirik ki, marketlərdə əmtəə görünüşü korlanmış dondurulmuş toyuq əti məhsulunа rast gəldikdə şirkətin satış departamentinə +994512502300 nömrəli telefona zəng vursunlar" - şirkətdən bildiriblər.

"Qida təhlükəsizliyi zəncirinin bütün halqalarında sağlamlığı qoruyan bir şirkət kimi, bizdən asılı olmayan səbəbdən baş vermiş bu halın müştərilərimizə "Səba" məhsulları qıtlığı yaşatmasına imkan verməyəcəyik. Yığılan məhsulların tez bir zamanda yeniləri ilə əvəzlənməsinə çalışacağıq. Şirkətə dəyən ziyana gəldikdə isə heç bir maddi zərər bizim müştərilərimizin sağlamlığından əhəmiyyətli ola bilməz" - "Səba"da bu fikirdədirlər.

# ABŞ kəşfiyyatı Trampın hərəkətinə təəccübləndi

**"ABŞ prezidenti Donald Trampın Putini payızda Vaşinqtona dəvət etməsindən təəccübləndim. Putinin Vaşinqtona səfəri xüsusi bir hadisə olacaq". Axar.az xəbər verir ki, bu barədə ABŞ Milli Kəşfiyyatının rəhbəri Den Kouts danışıb.**

Məlumata görə, Kouts Kolorado ştatında forumda çıxış edərkən ona Trampın görüşlə bağlı tapşırıq verdiyi bildirilib. Bu zaman Kouts təəccübünü gizlətməyərək "Xahiş edirəm, bir daha təkrarlayın" deyib. Bundan sonra isə auditoriyanın gülüş sədaları altında "Olsun, bu nəsə xüsusi bir hadisə olacaq" cavabını verib.

Daha sonra Milli Kəşfiyyatın rəhbərindən Trampa Putinlə ikinci dəfə təkbətək görüşməyi məsləhət görüb-görməməsi soruşulub: "Əgər bu məsələ məndən asılı olsaydı, bunu etməyin başqa yollarını axtarardım".

Xatırladaq ki, Ağ Evin mətbuat katibi Sara Sanders ABŞ prezidenti Donald Trampın Milli Təhlükəsizlik məsələləri üzrə köməkçisi Con Boltona Rusiya liderini payızda Vaşinqtona dəvət etməklə bağlı göstəriş verdiyini açıqlamışdı.

# Ermənilər bu şəhərdə at oynadır

**Bolqarıstanın Plovdiv şəhərində "Rus bazarı" adlanan ərazidə ermənilərin iştirakı ilə növbəti insident yaşanıb. Axar.az xəbər verir ki, bazarda erməni qruplaşmaların arasındakı narazılıq fonunda erməni sahibkarlardan birinin yeni aldığı yük avtomobili yandırılıb. Videogörüntülər vasitəsilə 4 erməni saxlanılsa da, həmvətənləri polis bölməsində dərhal vəkil və bəhanələrlə peyda olublar.**

Məlumata görə, ərazidə ermənilərin bir çoxu kriminal qaydalara uyğun şəkildə yaşayır və aralarında baş verən qarşıdurmalar zamanı istintaqla əməkdaşlıq etməkdən imtina edirlər. 2017-ci ilin noyabrında da erməni qruplar arasında bıçaqdan istifadə etməklə kütləvi dava baş verib. Hadisə zamanı yaralanan Ovannisyan soyadlı erməni isə kriminal həmvətənlərini qorumaq məqsədilə polisə ifadə verməkdən imtina edib.

Ərazidə yaşayan ermənilərin sözlərinə görə, burada münasibətləri etnik qruplaşmalar həll edirlər. Elə bıçaqlanma və maşının yandırılmasını da eyni insanlar törədiblər: "Əgər bu işin də üstü açılmasa, gələn dəfə onlar cinayət işini araşdırmalı olacaqlar".

# Milli Mətbuat Günü ilə bağlı Bakıda böyük törən

## Jurnalist müsabiqəsinin qalibləri mükafatlandırıldı

**İyulun 20-də Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə 22 iyul Milli Mətbuat Günü münasibətilə bayram tədbiri keçirildi. Bayram tədbirində fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi də oldu.**



Fondun icraçı direktoru Vüqar Səfərli Azərbaycanda mətbuata dövlətin, ölkə prezidentinin dəstəyindən söz açdı, həmçinin KİVDF-nin il ərzində keçirdiyi bir sıra tədbirlərdən danışdı. Jurnalist müsabiqəsinə 19 istiqamət üzrə 162 yazının təqdim olunduğunu bildirdi. 112 jurnalistin mükafatlandırıldığını diqqətə çatdırdı.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov isə jurnalistləri təbrik nitqində Azərbaycanın dövlətçilik tarixinə, mətbuatın yaranması və inkişafı tarixinə geniş ekskursiya etdi və maraqlı tarixi faktları diqqətə çatdırdı. Bu ilin Azərbaycan Xalq Cümhuriyyətinin yüz illiyi olaraq əlamətdar il olduğunu





qeyd edən Əli Həsənov dövlətçilik tariximizin yaşının daha qədim olduğunu da bildirdi. Prezidentin köməkçisi onu da dedi ki, Azərbaycan milli mətbuatının yaşı Xalq Cümhuriyyətimizin yaşından çoxdur. Maarifçi-ziyalı Həsən bəy Zərdabinin o dövrün ağır şərtləri altında, Çar Rusiyasının qadağalarına rəğmən yaratdığı "Əkinçi" qəzetinin milli mətbuatımızın əsasını qoyduğunu və böyük məktəb olduğunu vurğulayan Əli Həsənov Azərbaycan aydınlarının yetişməsində və Cümhuriyyət ideyalarının yaranıb yayılmasında da bu qəzetin başlanğıc olaraq böyük xidmətlərinin olduğundan söz açdı, yeni maarifçi jurnalistlər nəslinin yetişməsində bu qəzetin müstəsna rol oynadığını qeyd etdi. İki il ərzində fəaliyyət göstərən "Əkinçi"dən sonrakı dövrdə nəşr edilən qəzetlər haqda da danışan Əli Həsənov Cümhuriyyət dövrü, həmçinin 70 ilik sovet dövründə Azərbaycan mətbuatının keçdiyi yola ətraflı nəzər saldı.

Prezidentin köməkçisi nitqində 1991-ci ildə Azərbaycanın müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsindən sonrakı dövrə də geniş yer ayıraraq bildirdi ki, o zamandan Azərbaycan ərazisində müstəqil media nümunələri yaranmağa başlayıb.

"1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan mediası üzərindən bütün dövlət tənzimləmə mexanizmlərini ləğv edən qərar qəbul olundu, senzura aradan qaldırıldı. Bununla da Azərbaycanda sərbəst media mühiti yarandı" deyən Ə.Həsənovun sözlərinə görə, Azərbaycan milli mətbuatının yaranmasında Həsən Bəy Zərdabi nə qədər inqilabi fəaliyyət göstərmişdisə, Heydər Əliyevin 1998-ci ildə qəbul etdiyi bu qərar təxminən o qədər böyük ictimai əhəmiyyətə malik oub.

Hakimiyyət rəsmisi prezident İlham Əliyevin mətbuata, jurnalistlərə böyük dəstəyindən də çoxlu sayda faktları sadalamaqla söz açdı. Jurnalistlərin sosial, mənzil şəraitinin yaxşılaşdırılması barədə atdığı addımları sadaladı. Azərbaycan mediasının səsinin dünya media aləmindən gəldiyini bildirdi.

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral da jurnalistləri təbrik elədi. Qeyd edək ki, tədbirə Türkiyədən 40 nəfərlik jurnalistlərdən ibarət nümayəndə heyəti qatılmışdı. Əli Həsənov onları da salamlayaraq qardaş Türkiyə ilə Azərbaycanın bütün sahələrdə olduğu kimi, media sahəsində birgə hərəkət etdiyini, əməkdaşlığın yüksək səviyyədə olduğunu faktları sadalamaqla diqqətə çatdırdı.

Sonra müsabiqə qaliblərinə diplomlar təqdim olundu. Qaliblər sırasında "Yeni Müsavat"ın əməkdaşları Etibar Seyidağa (1-ci yer) və Nərgiz Salmanova (2-ci yer) da var.

❑ **E.SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# İki nazirlik Mətbuat Günü ilə bağlı tədbir keçirdi

**Milli Mətbuatın 143-cü ildönümü münasibətilə dünən müxtəlif dövlət və özəl qurumlar tədbirlər keçirib. "Yeni Müsavat"ın məlumatına görə, iyulun 20-də Ekologiya və Təbii Sərvətlər Nazirliyində Milli Mətbuat Günü münasibətilə tədbir keçirilib.**





Ölkənin qabaqcıl qəzet, sayt və televiziya nümayəndələrinin qatıldığı tədbiri nazirliyin mətbuat katibi İradə İbrahimova açıb və nazirliklə mütəmadi əməkdaşlıq edənlər də daxil olmaqla, bütün media nümayəndələrinə təbriklərini çatdırıb. Daha sonra nazirliyin digər rəsmiləri - Vüqar Kərimov və Telman Quliyev media nümayəndələrini təbrik ediblər.

**V.Kərimov bildirib ki, nazirlik və şəxsən nazir Muxtar Babayev həmişə jurnalistlərlə əməkdaşlıq etməyə maraqlıdır:** "Nazir özü şəxsən tədbirdə iştirak etmeyi planlaşdırmışdı. Lakin xarici səfərdə olduğu üçün tədbirdə iştirak etmir. Onun sizlərə təbrikini çatdırıram. Ölkənin ekoloji vəziyyətinin qorunmasında media nümayəndələrinin də köməyinə ehtiyacımız var. Mətbuatımız mütərəqqi ənənələri formalaşdıraraq cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirir. Sizi bir daha ürəkdən təbrik edirəm".

Tədbirin sonunda media nümayəndələrinə hədiyyələr təqdim olunub.

Təhsil Nazirliyi isə təhsil sahəsindəki dəyişikliklərin cəmiyyətə çatdırılmasında fəal jurnalist mövqeyi ilə seçilən mətbuat nümayəndələrinin və bu sahədə peşəkarlıq nümayiş etdirən təhsil sahəsi əməkdaşlarının təltif olunması ilə bağlı mərasim keçirib.

Mərasimdə təhsil naziri Ceyhun Bayramov, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov və media nümayəndələri iştirak ediblər. Nazir C.Bayramov 143 il öncə Azərbaycan mətbuatının əsasının qoyulmasını milli düşüncə tarixinin şanlı səhifəsi və müstəqilliyə doğru yolun başlanğıcı kimi dəyərləndirib. Həsən bəy Zərdabinin doğma ana dilində nəşr etdirdiyi "Əkinçi"nin əsl milli demokratik və xalq mətbuatı nümunəsi olduğunu qeyd edən nazir Azərbaycan Xalq Cümhuriyyətini yaradan şəxslərin imzasının da ilk mətbuat nümunələrində yer almasını diqqətə çatdırıb, dövlətin mətbuata qayğısından söz açıb.

Ceyhun Bayramov mətbuatın təhsil mövzusuna xüsusi diqqət və həssaslıqla yanaşmasını yüksək qiymətləndirib, media nümayəndələrini təhsilin uğurlarını, problemlərini, bu sahədə həyata keçirilən islahatları cəmiyyətə çatdırmaqda daha da aktiv olmağa çağırıb.

Media nümayəndələrini təbrik edən Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımızın xalqımızın maariflənməsində, milli dəyərlərin təbliğində mühüm vasitə olduğunu bildirib, Azərbaycanda medianın inkişafı istiqamətində zəruri tədbirlərin həyata keçirilməsindən danışıb.

Sonra təhsil sahəsində həyata keçirilən islahatların, əldə olunan nailiyyətlərin ictimaiyyətə çatdırılmasında fəallığı ilə seçilən media nümayəndələri və bu sahədə çalışan təhsil işçiləri təltif olunub. Tədbirdə Azərbaycan Milli Konservatoriyası tələbələrinin ifasında musiqi nömrələri səslənib. Təltif edilən jurnalistlər arasında "Yeni Müsavat"ın əməkdaşı da olub.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Azərbaycanda milli mətbuatın yaranmasından 143 il ötür

## Ötən müddətdə Azərbaycan mediası hansı mərhələlərdən keçib?

**İyulun 22-də Milli Mətbuatımızın yaranmasının 143-cü il dönümü qeyd olunacaq. Ölkədə ilk mətbu orqan olan və əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş "Əkinçi" qəzetinin fəaliyyətə başladığı 22 iyul Azərbaycanda Milli Mətbuat Günü kimi qeyd olunur.**



"Əkinçi"nin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rolu olub. Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" az müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşdı. Təsadüfi deyil ki, dövrünün görkəmli ziyalıları və qələm sahibləri qəzetlə əməkdaşlıq edir, müntəzəm məqalələrlə çıxış edirdilər. Lakin "Əkinçi"nin ömrü uzun sürmədi. Çar Rusiyası qəzetin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başladı və sonda qəzetin nəşrini dayandırdı. "Əkinçi"dən sonra bu sahədə xeyli irəliləyişlər olmuşdur. XIX əsrin sonlarında "Ziya", "Kəşkül", "Kaspi" qəzetləri nəşrə başlamışdır. XX əsrin əvvəllərində "Şərqi-rus", "Həyat", "Açıq söz", "Azərbaycan " kimi demokratik ruhlu, milli qayəli qəzetlər meydana çıxdı.

O vaxtdan ötən zaman kəsiyində müxtəlif tənəzzül və intibah dövrləri keçən Azərbaycan mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirən güzgü rolunu oynayıb. 1998-ci ilin avqustunda senzuranın ləğvi isə Azərbaycanda mətbuatın inkişafına ciddi təkan verib. Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Bütün dünyada gedən qloballaşma prosesi mətbuatdan da yan ötməyib. Bu gün yüzlərlə jurnalist beynəlxalq təşkilatların dəstəyi ilə təşkil olunan peşə artımı kurslarında treninq və təkmilləşmə kursları keçirlər.

2003-cü il martın 15-də isə Azərbaycanda Mətbuat Şurasının formalaşması media sahəsində pərakəndəliyi aradan qaldırmağa müvəffəq olub, Jurnalistlərin Peşə Kodeksinin yaradılması isə media qurumları arasında problemlərin həllinə müsbət təsir göstərib.

2009-cu ilin martında imzaladığı sərəncamla Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu (KİVDF) yaradılıb. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən buna xidmət edən kütləvi informasiya vasitələrinə dövlət dəstəyidir. Bu günədək KİVDF-yə dövlət tərəfindən 35 milyon manat vəsait ayrılıb və bu vəsait medianın maddi-texniki bazasının yaxşılaşdırılmasına sərf olunub.

Jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də dövlət tərəfindən xeyli addım atılıb. Belə ki, 2013-cü ildə jurnalistlər üçün ilk 156 mənzildən ibarət olan ilk binanın açılışı olub. Jurnalistlərə verilən bu mənzillər dövlət tərəfindən tam təmir edilib. İkinci bina isə 2017-ci ildə jurnalistlərin ixtiyarına verilib. Bu bina isə 255 mənzildən ibarət idi. Jurnalistlər üçün hazırda inşası davam etdirilən 3-cü binanın 2020-ci ildə təhvil verilməsi nəzərdə tutulub.

Ölkə prezidenti İlham Əliyev hər il olduğu kimi bu il də mətbuatın qayğısına qalan addım atıb. Belə ki, prezident İlham Əliyev Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna (KİVDF) bir milyon manat ayrılıb.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 156 (7045) 21 iyul 2018



# Kürdoğlunun Şuşada zəhərlənmiş atası

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**2014-cü ilin iyulunda Kəlbəcərdə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülmüş, hələ də Şuşa həbsxanasında girov saxlanan Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov atasının zəhərləndiyini deyib. Əslində bu açıqlamadan sonra Qarabağla məşğul olan qurumlar, elə Qırmızı Xaç Komitəsi adlı qurum hərəkətə keçməli, ən azı azərbaycanlı girovun gerçək durumu barədə ailəsinə məlumat verməli idi. Ancaq onlar üçün bu, elə də maraqlı mövzu deyil.**

Dilqəm Əsgərovla Şahbaz Quliyev 5 ildir öz vətənində girov götürülüb - terrorçular tərəfindən. Di gəl, beynəlxalq aləm antiterror koalisiyasının üzvü olan Azərbaycanın vətəndaşlarına qarşı terror hücumunu görməzdən gəlir. Bir ABŞ, bir Fransa vətəndaşı terrorçuların əlinə keçsə, yaxud illərdir işgəncə altında saxlansaydı, bənzər reaksiya olardımı? Təbii ki, yox. Amma Azərbaycan torpağının işğalına laqeyd münasibət bəsləyən böyük güclər vətəndaşlarımızın da öz yurdunda erməni terrorçuları tərəfindən girov götürülməsinə biganə münasibət göstərir.

Düzdür, Azərbaycan dövləti Kəlbəcər girovları məsələsini Avropa Məhkəməsində, Avropa Şurasında qaldırıb, onların azad olunması istiqamətində əlindən gələni edir. Amma reallıqda onları Şuşa türməsindən xilas etmək üçün Şuşanı azad etmək, erməni terrorçularının başına bombalar yağdırmaq lazımdır.

Ancaq dünya gücləri buna da imkan vermir, Azərbaycanın əl-qolunu bağlamağa, torpaqların ilhaqının əbədiləşdirilməsinə çalışırlar. Aprel döyüşlərində ordumuz bir az irəli gedən kimi həmin dairələrin kürkünə dirə düşdü, tez-tələsik sülh çağırışları etməyə, təzyiqlərə başladılar.

Aprel döyüşlərindən iki il keçib, niyə həmin "sülh göyərçinləri" Ermənistan hakimiyyətinin, lap elə Qarabağdakı separatçıların başına ağıl qoymaq istəmir ki, savaş başlasa, bölgədə fəlakətlər yaşanacaq, daşı ətəyinizdən tökün, torpaqları qaytarın.

Etmirlər, maraqlı deyillər. Ona görədir ki, Nikol Paşinyan da yekə-yekə Dağlıq Qarabağın güzəştə gedilməsinin müzakirə mövzusu olmayacağından danışır. Ona görədir ki, mülki insanlarımız Şuşa məhbəsində əzab çəkir.

**Kürdoğlu Əsgərov yazıb:** "Atam Dilqəm Əsgərovu zəhərləyiblər. Qırmızı Xaç Komitəsinin həkimi Roman əvvəl təsdiq etsə də, bu xəbəri indi təkzib edir. 8 aydır atamdan nə məktub, nə də video gəlməməsinin səbəbi, sən demə, atamın zəhərlənməsiymiş". Deyir, komitə üzvləri ona atasının canlı videosunu gətirsin, nağıl danışmasın!

Bu, atası terrorçu əlində olan övladın harayıdır. Qulağı kar, gözü kor olmuş dünyaya səslənişidir həm də. Yəqin bu dəfə də eşitməyəcəklər. Necə ki, Avropa Şurasının tribunasından səsləndi, nəticəsi olmadı...

"Qırmızı Xaç" bu günlərdə iddia etmişdi ki, Dilqəmdən ailəsinə məktub gətirib. Amma oğlu deyir ki, 8 aydır atasından məktub yoxdur. 8 ay! Müasir dünyada informasiya almaq an məsələsidir artıq. Amma bütün imkanlara malik olan beynəlxalq təşkilat Bakının 400 km-liyindəki Şuşadan əl boyda kağızı gətirməyə də ərinir. Hələ mən oğurlanmış insanlarımızın dərhal azad edilməli olduqlarını bir yana qoyuram. Məktub belə gətirmirlər e!!!

Süleyman Rüstəmin "Ana və poçtalyon" şeiri yadınızda olar. Cəbhədəki oğlundan 4 ay məktub almayan ananın iztirabından bəhs olunurdu. Onda nə internet vardı, nə feysbuk, nə votsap. Dilqəmlə Şahbazdan 8 aydır məktub gəlmir, min km-lərlə uzaqlardan yox, vətənimizin işğalda olan bir parçasından! Əslində beynəlxalq qanunlar videobağlantının olmasını da tələb edir. "Xaç Komitəsi" isə bu məsələdə xaçlıların mövqeyinə təslim olub, ədalətsizliyə qarşı etiraz səsini qaldırmır.

İyulun 15-ində Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində düşmənin kəşfiyyat-diversiya qrupu qoşunların təmas xəttini keçməyə cəhd göstərmişdi. Əsgərlərimizin sayıqlığı nəticəsində düşmənin təxribat cəhdinin qarşısı alındı 1984-cü il təvəllüdlü Karen Kazaryan adlı kəşfiyyatçı əsir götürüldü. Ermənistanın Əsir və Girov Götürülmüş, İtkin Düşmüş Şəxslər üzrə İdarələrarası Komissiyanın sədri David Tonoyan Karen Kazaryanın geri qaytarılmasının təşkili üçün Beynəlxalq Qırmızı Xaç Komitəsinin İrəvan ofisinə müraciət edən kimi komitə hərəkətə keçdi. Ən azı, erməni kəşfiyyatçının durumunu nəzarətdə saxlamaq üçün.

Fərqi görürsüzmü?..

# Azərbaycan-Fransa əlaqələrində mühüm tarix

## Prezident İlham Əliyev Parisdə yüksək səviyyəli görüşlər keçirdi; ekspertlər səfəri yüksək dəyərləndirir; ermənilər narahatdır...

**Azərbaycan prezidenti İlham Əliyevin Fransaya səfəri Ermənistanda ciddi narahatlıq doğurub. ATƏT-ə sədrlik edən İtaliyanın prezidenti Sercio Mattarellanın Bakıya səfərindən dərhal sonra ölkə başçısının ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsinə səfər etməsi işğalçı ölkənin ekspertlərində təşviş yaradıb.**

Maraqlısı budur ki, məhz bu ərəfədə Ermənistanın baş naziri Nikol Paşinyan üzünü Rusiyaya tutaraq, faktiki olaraq Kremlə Azərbaycanı müharibəyə başlamağa imkan verməmək üçün yalvarışlar edib. Erməni politoloq Anuş Sedrakyan Fransa və Azərbaycan arasındakı münasibətlərdə yaxınlaşma faktını şərh edərək, 1-in am portalına müsahibəsində bu barədə danışıb.



**Qeyd edək ki, İlham Əliyev iyulun 19-da Fransaya yollanıb. O, səfərdən əvvəl prezident Emmanuel Makrona göndərdiyi məktubda qeyd edib:** "Biz Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Fransaya - həm ATƏT Minsk Qrupunun həmsədr ölkəsi kimi, həm də şəxsən Sizə böyük ümid bağlayırıq. Biz beynəlxalq hüquq normalarına uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü çərçivəsində münaqişənin dinc, ədalətli tənzimlənməsini böyük səbirsizliklə gözləyirik".

Səfərdən öncə Fransanın Azərbaycana silah satması ilə bağlı xəbər yayılmışdı. Paris bunu təkzib etsə də, ermənilər çox narahatdır. Fransanın Azərbaycana peyk satması məlumdur. Anuş Sedrakyanın sözlərinə görə, Azərbaycan iqtisadi resurslar daxil olmaqla, istənilən şeyi hərbi məqsədlər üçün istifadə edə bilər. Erməni lobbisinin güclü olduğu ölkələrdən biri olan Fransada Azərbaycan dövlət başçısının şərəfinə tədbirlərin təşkili və yüksək səviyyədə qarşılanma, məhsuldar görüşlər təbii ki, erməniləri məmnun etmir.

İyulun 20-də Parisdə, Yelisey Sarayında prezident İlham Əliyevin və fransalı həmkarı Emmanuel Makronun görüşü olub. Yelisey Sarayının qarşısında Azərbaycanın dövlət başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Makron İlham Əliyevi qarşılayıb.

Eyni gündə İlham Əliyevin Fransa Milli Assambleyasının sədri Fransua de Rüji ilə də görüşü olub. Görüşdə Azərbaycanla Fransa arasında ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əlaqələrin uğurla inkişaf etməsindən məmnunluq ifadə olunub. Fransaya səfərinin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb. İlham Əliyev Azərbaycanla Fransanın 15 şəhərinin qardaşlaşdığını qeyd edib. Görüşdə həmçinin Azərbaycan-Fransa əlaqələrinin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı baxımından önəmi qeyd edilib. Görüşdə Qarabağ münaqişəsi ətrafında müzakirələr aparılıb.

Bundan əvvəlki gün isə Azərbaycan prezidenti İlham Əliyev Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə görüşüb. Görüşdə həmçinin Dağlıq Qarabağ məsələsi müzakirə olunub. Senatın sədri vurğulayıb ki, Fransa münaqişənin sülh yolu ilə həll olunması istiqamətində fəaliyyətini davam etdirəcək.

Avropa İttifaqının aparıcı ölkələrindən biri, həmçinin həmsədr dövlət olan Fransaya səfər, əməkdaşlığın inkişafı təbii ki, Azərbaycan üçün çox mühüm əhəmiyyət kəsb edir. Ekspertlər də ermənilərin narahatlığını anlaşılan sayır.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a açıqlamasında səfərin önəmini təsdiqlədi:** "İtaliya prezidentinin Azərbaycana səfəri şübhəsiz ki, çox önəmli hadisədir. İmzalanan sənədlər, verilən bəyanatlar da bunu sübuta yetirir. Azərbaycan prezidentinin Fransaya səfərinə gəldikdə isə bu səfərin əhəmiyyəti Ermənistan tərəfinin həyəcanlı davranışlarında, səfər ərəfəsində Ermənistan mətbuatında Azərbaycan-Fransa münasibətlərinin inkişafı barədə yer alan yazılarda da özünü büruzə verir. Ermənilər artıq "Paşinyan inqilabı" layihəsinin gözlənilən effekti vermədiyini başa düşüblər və anlayıblar ki, baş verənlər onları ənənəvi himayəçiləri ilə qarşı-qarşı qoymaqla yanaşı, Qərblə münasibətlərinə də müsbət təsir göstərməyib. Ermənistanın və dünya ermənilərinin Azərbaycanın mövqelərinin zəifləDilməsinə xidmət edən "məxməri inqilab", "demokratik dəyişikliklər" ssenarisi baş tutmadı. Heç kimi ərazisində başqa dövlətin hərbi bazası olan, tamamilə əks hərbi-siyasi blokda təmsil olunan, ölkənin həyati əhəmiyyət kəsb edən bütün sektorlarını başqa bir ölkənin oliqarxlarına təslim edən, qonşu ölkənin ərazilərini işğal altında saxlayan bir forpost dövlətin demokratiya haqqında nağıllarına inandırmaq mümkün deyil. Sən nə oyun qurursan qur, əgər müstəqil qərar qəbul etmək hüququn yoxdursa, o zaman bu oyunun sonunda məğlub duruma düşəcəksən".

**E.Mirzəbəyli qeyd etdi ki, Fransa Avropanın ən böyük dövləti, BMT Təhlükəsizlik Şurasının daimi üzvü, ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biridir:** "Dünyadakı ən böyük erməni diaspor təşkilatlarından birinin bu ölkədə olması da Fransanı daim Azərbaycanın diqqət mərkəzində saxlayır. Bu baxımdan Azərbaycan-Fransa əlaqələrinin inkişafı ölkəmiz üçün müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan prezidenti iki ölkə arasındakı münasibətlərin inkişafına mane olan səddi artıq uzun müddətdir ki, sıradan çıxarıb. Bu səfər isə iki ölkə arasındakı əlaqələrin inkişafında yeni və çox önəmli bir mərhələnin başlanğıcı olacaq. Bu baxımdan Azərbaycan prezidentinin Fransaya səfərini tarixi hadisə kimi qiymətləndirmək lazımdır. Düşünürəm ki, yaxın dövrdə biz bu səfərin əhəmiyyətini daha aydın şəkildə görə biləcəyik".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da bildirdi ki, Azərbaycan prezidentinin Fransaya səfəri və keçirdiyi görüşlər əhəmiyyətlidir:** "Birincisi, Avropa dövlətləri arasında Cənubi Qafqaza maraq göstərən əsas dövlətlərdən biri məhz Fransadır. Fransanın dəyişən prezidentləri dəfələrlə Cənubi Qafqaz ölkələrinə səfər ediblər. İkincisi, Fransa Minsk Qrupunun həmsədridir. Başqa sözlə, Fransa həmsədrlikdə bütün Avropanı təmsil edir. Doğrudur, Fransa parlamentində erməni lobbisinin xeyrinə qəbul edilən sənədlər var və bu haqlı olaraq bizim xoşumuza gəlmir. Buna baxmayaraq, erməni lobbisinin güclü olduğu ölkə ilə əməkdaşlığı azaltmaq da doğru olmazdı. Tam əksinə, əməkdaşlığın genişləndirilməsi yolları hərəkətə gətirilməlidir. Məsələn, prezident İlham Əliyev Parisdə "Total" neft şirkətinin rəhbəri ilə görüşdü. "Total" dünyanın nəhəng neft şirkətlərindən biridir və Azərbaycan yataqlarının işlənməsində iştirak edir, yeni yataqlara maraq göstərir. Bu şirkət Azərbaycana yeni yatırımlar barədə düşünür. Bu hər iki tərəfə xeyirlidir".

**E.Şahinoğlu digər məqamlara da xüsusi diqqət yetirilməsini vacib sayır:** "İlham Əliyev Parisdə Fransanın hərbi sənaye kompleksinə aid şirkətlərin prezidentləri ilə görüşdü. Həmin şirkətlər Azərbaycanla hərbi sahədə əməkdaşlıq etmək istəyir. Mümkündür ki, yaxın illərdə həmin şirkətlər Azərbaycana modern hərbi texnika da satsınlar. Həmin şirkətlər bunda maraqlıdırlar. Çünki bu sazişlər həmin şirkətlərə milyardlarla dollar qazanc gətirə bilər. Əlbəttə, bu amil Ermənistan hakimiyyətinin və erməni lobbisinin xoşuna gəlməyəcək və onlar böyük ehtimalla haray-həşir də salacaqlar. Ancaq Fransa şirkətləri gəlir və münbit bazarlar haqqında düşünürlər. Azərbaycanla əməkdaşlıq isə həmin şirkətlər üçün faydalıdır. Bütün hallarda yaxın müddətdə Azərbaycan Avropanın Cənubi Qafqaz üçün qeyri-rəsmi tətbiq etdiyi embarqonu yaracaq. Bu, ilk olaraq Fransa da ola bilər, başqa dövlət də".

❑ E.PAŞASOY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 156 (7045) 21 iyul 2018

**Yasamal rayonu, Ə.Əhmədov küçəsində yerləşən, “Şərur” MTK-ya məxsus binada18 yaşlı qızın intiharı ilə bağlı müəmmalı məqamlar var. Qızın anası onun intiharı üçün heç bir səbəb olmadığını deyir. Yayılan xəbərlərdə isə iddia olunur ki, Nərgiz Vəliyeva sosial şəbəkə üzərindən intihara sürüklənib. Gənc qızın kimin tərəfindən intihar həddinə çatdırıldığı bilinmir.**

# Yasamaldakı “intihar vadisi”: 18 yaşlı qızın özünəqəsdinin mübhəmləri

## Nərgiz Vəliyevanın sosial şəbəkə üzərindən intihara sürükləndiyi deyilir; 6 ay əvvəl həmin ərazidə daha bir Nərgiz özünü binadan atmışdı...



**Nərgiz adı ilə tanınan Əda Zeynalova da özünü həmin ərazidə 10-cu mərtəbədən atıbmış...**

“Yeni Müsavat” xəbər verir ki, bu, həmin ərazidə son 6 ay ərzində baş verən 2-ci intihar faktıdır. Nə qədər qəribə olsa da, 6 ay əvvəl - 2017-ci il dekabrın 8-də intihar edən qızın adı başqa olsa da, onu hamı Nərgiz adı ilə tanıyıb, çağırıb.

Bəs 6 ay əvvəl Nərgizi intihara sürükləyən kim olub?

Həmin olay dekabrın 8-nə keçən gecə Yasamal rayonu ərazisində, metronun “Elmlər Akademiyası” stansiyasının yaxınlığında baş verib. Özünü ərazidəki çoxmərtəbəli binanın 10-cu mərtəbədən ataraq həyatına son qoyan 24 yaşlı Əda (Nərgiz) Zeynalovanın UNEC-də MBA proqramı üzrə magistr təhsili alırmış.

Magistraturanın I kurs tələbəsi olan Əda Zeynalova dekabrın 7-dək dərslərdə müntəzəm iştirak edib. Dostları və yoldaşları onu daha çox Nərgiz adı ilə tanıyırmış. Həmin günlərdə bu intihar faktı ilə bağlı da Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlanıb.

“Çox şən və gülərüz biri idi. Özünü öldürdüyünə qətiyyən inana bilmirik. Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin məzunu olub. Magistratura təhsili alırdı. Atasını iki il əvvəl itirib. Qətiyyən canına qəsd edəcək birinə bənzəmirdi. Güclü insan idi. Atasını çox istəyirdi. Hətta atası rəhmətə gedəndə belə özünü toparlaya bilmişdi. Hər zaman həyatdan zövq almağa çalışan biri idi. Axırıncı dəfə Whatsapp-da gecə saat 2-də olub, lakin özünü səhər saatlarında öldürdüyü deyilir. Dekabrın 31-i ad günü olacaqdı. O, yaxın rəfiqəsi ilə ad günü ilə bağlı planlar qururdu”. Bu sözləri Nərgizin ölümü ilə bağlı milli.az-a o dövrdə qrup yoldaşları demişdilər.

**Nərgizlərin “ölüm oyun”larını yayan qrupların qurbanına çevrilməsi ehtimalı qalır**

Mümkündür ki, hər 2 hadisənin birləşdiyi bir nöqtə olsun. Hazırda bu hadisələrin bir-biri ilə əlaqəli olmasını birmənalı söyləmək də çətindir. Hər 2 gənc xanımın sosial şəbəkələr vasitəsilə “ölüm oyun”larını yayan qrupların qurbanına çevrilməsi ehtimalı da qalır.

“Yeni Müsavat”ın əməkdaşı məsələ ilə bağlı Baş Prokurorluğun mətbuat xidməti ilə əlaqə saxlayıb. Xidmətdən bildiriblər ki, hazırda faktla bağlı Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə işi başlanıb. İş üzrə məhkəmə tibb ekspertizası təyin olunub.

“Şahidlər dindirilib, hazırda hadisənin başvermə səbəblərinin müəyyən olunması istiqamətində zəruri istintaq tədbirləri həyata keçirilir” - deyə xidmətdən bildiriblər.

**Bundan əvvəl isə Yasamal Rayon Prokurorluğundan “Sputnik Azəbaycan”a verilən məlumatda qızın mənzildə tək olmadığı haqda xəbərlərin araşdırıldığı bildirilmişdi:** “Onun yanında olan şəxsin kimliyini müəyyənləşdirmək üçün tədbirlər görülür. Hadisənin qətl olması istisna edilmir. Faktla bağlı araşdırma aparılır”.

**“Yoldan keçən”, “könlünə ölmək düşən” hər kəs bu binaya üz tutur**

**2000-ci il təvəllüdlü Nərgiz Vəliyeva Ə.Əhmədov küçəsindəki 24 B saylı binanın 17-ci mərtəbəsindən özünü atıb. Həmin binanın sakinləri isə deyiblər ki, “yoldan keçən”, “könlünə ölmək düşən” çoxları bu binaya üz tutur. Sitat:** “Bizim blokların qapısında qıfıl, şifrə yoxdur. İstəyən hər kəs asanlıqla bloklara girə, mərtəbələrə, hətta dama qalxa bilir. Yaxşı ki, qız düşəndə həyətdəki armaturlara girməyib. Neçə illərdir biz bu ərazidə yaşayırıq, təmir işləri başa çatmır”.

**Sakinlər intihar edən qızın o binada yaşamadığını bildiriblər:** “Həmin qız bizim binada yaşamayıb. Eşitdiyimizə görə, ”İnşaatçılar" metro stansiyası tərəfdə yaşayırmış. Bizim binaya da səhər tezdən gəlib. Bu fakt binanın müşahidə kameralarına da düşüb. Qız yerə düşəndə əynində paltarının olmadığına gəlincə, o, özünü atanda paltarı kondisionerə ilişərək cırılıb. Baş verənlərlə bağlı hərə bir söz deyir. Bizim binanın balkonları açıqdır. Qız da özünü dəhlizdən atıb. Meyit yerdə olanda hərə bir söz deyirdi".

**Şahidlər onu da qeyd ediblər ki, qızın meyiti 1 saata yaxın yerdə qalıb:** “Sonradan rəfiqəsi gəldi, ancaq qızın nə problemi olduğunu demədi. Anası da hadisə yerinə gəlmişdi. Qışqırıb ağlayır, qızının niyə bu addımı atdığını adamlardan soruşurdu”.

**Sakinlər xüsusilə vurğulayıblar ki, intiharın baş verdiyi bina, ümumiyyətlə, qalmaqallıdır:** “Binadakı mənzillər kimə gəldi kirayə verilir. Hər gün müxtəlif mənzillərdə mübahisələr, davalar olur”.

**Binanın komendantı Toğrul Kətanov bildirib ki, intihar edən qız gecəni həmin binada keçirməyib:** “O, bizim binaya səhər saat 09.27-də daxil olub və 09.38-də intihar edib. Qız binaya tək gəlib. Hadisə 11 dəqiqə ərzində baş verib”.

**T.Kətanovun sözlərinə görə, bina 2 ilə yaxındır ki, istismara verilib, buna görə də təmir işləri tam yekunlaşmayıb:** “Binanın həyətində qaraj tikilir. Tikinti işləri bitmədiyi üçün həyətdə müəyyən armaturlar var. Qarajın tikintisi başa çatdıqdan sonra binanın qapılarına da şifrə qoyulacaq”.

Komendant həmçinin qeyd edib ki, binada mənzillər mənzil sahibləri tərəfindən kirayə verildiyinə görə o, bu məsələlərə müdaxilə edə bilmir.

**Nərgiz Vəliyevanın anası Çimnaz Vəliyeva “Hürriyyət” qəzetinə bildirib ki, qızı haqda sosial şəbəkələrdə yazılanlardan sarsılıb.**

**Nərgizin anasının sözlərinə görə, hadisədən əvvəlki gecə qızı rəfiqəsinin evində qalıb:** “Qızım rəfiqəsi Aynurun evində qalmışdı. Gecə saat 01:30-da telefonla Nərgizlə danışmışam. Rəfiqəsi ilə evdə idilər. Hadisə olan gün biz rayona gedəcəkdik. Qızımla əlaqə saxladım, dedi ki, ana, taksi çağırmışam, evə gəlirəm. Taksi ünvana çatan zaman intihar edib. Necə olur ki, taksi gəlib həyətdə qızımı gözləyən vaxt qızım özünü 17-ci mərtəbədən atıb? Mən bütün bunları anlaya bilmirəm. Özünü atdığı yer rəfiqəsinin yaşadığı bina deyil”.

**Çimnaz Vəliyeva bildirib ki, qızı haqda deyilənlər əsassızdır:** “Mən övladımı özünü atdığı binada görəndə təəccübləndim ki, ay Allah, bura haradır? Üstünü örtmüşdülər, ayağında ayaqqabı gördüm. Qızımın meyiti bir saat yerdə qalıb. Mən axı qızımı ora qoyub getməmişdim. Aynurun evində qoymuşdum. Onun evi 9-cu mikrorayondadır. Necə olub ki, Nərgiz intihar etdiyi binaya gəlib? Bütün bunları bilmirəm. Hər kəsdən xahiş edirəm, qızım haqda nəsə yazmasın. Mənim 18 yaşında övladım ölüb. Bu, hər kəsin başına gələ biləcək hadisədir. Uşağımın arxasınca deyilən sözlər bir ana kimi məni sarsıdır. Hər kəs bir söz danışır. Kimisi qızımın özünü atanda lüt olduğunu deyir. Bu, düzgün deyil. Onun əynində qara şortik, qırmızı gödəkçə və ayağında ayaqqabı olub”.

**İntihar edən qızın anası deyir ki, Nərgiz öldüyü gün səhər sosial şəbəkədə aktiv olub:** “Qızım saat 09:10-da ”Whatsapp"da aktiv olub. Şahidlər açıqlama verib ki, gecə səhərə qədər binadan ağlamaq səsi gəlib. Bəs elədirsə, niyə bir nəfər qızımla maraqlanmayıb? Biriniz qapını açıb deyəydiniz ki, ay bala, sənə nə olub? Bəlkə mənim uşağımı öldürürdülər? Polisə xəbər verəydilər. Kaş qızım sağ olaydı. Mən onu bütün səhvləri ilə qəbul edərdim"...

Hər 2 Nərgizin intiharında oxşar məqamlar var. Onların sosial şəbəkədə aktivliklərinin xüsusi diqqət çəkməsi, Yasamal rayonu ərazisindəki tanıyıb-bilmədikləri çoxmərtəbəli binaları intihar məkanları kimi seçmələri, ən nəhayət, adlarının üst-üstə düşməsi də istintaqçılar üçün ipucu ola bilər...

**❑ E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**



# Dilqəm Əsgərovun oğlu: “Atamı ermənilər zəhərləyiblər”

**2014-cü ilin iyulunda Kəlbəcərdə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülmüş, hələ də Dağlıq Qarabağda girov saxlanan Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov atasının zəhərləndiyini bildirib.**

Bu barədə açıqlamanı dünən günün ikinci yarısı Kürdoğlu Əsgərov fcebook səhifəsində yazıb: “Atam Dilqəm Əsgərovu zəhərləyiblər. Qırmızı Xaç Komitəsinin həkimi Roman əvvəl təsdiq etsə də bu xəbəri indi təkzib edir. 8 aydır atamdan nə məktub, nə də video gəlməməsinin səbəbi, sən demə, atamın zəhərlənməsiymiş. Mənə də deyirlər ki, atan özü istəmir məktub yazmağı. Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşları sübut etsinlər ki, atamın səhhəti yaxşıdır, atamın canlı videosunu gətirsinlər. Mənə nağıl danışmasınlar”.

Qeyd edək ki, Dağlıq Qarabağda Şuşa həbsxanasında girov saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevdən sonuncu dəfə iyun ayında məktub gəldiyi barədə K.Əsgərovun ittiham etdiyi Beynəlxalq Qırmızı Xaç Komitəsindən məlumat verilmişdi. Kürdoğlu Əsgərovun yazdığından isə belə məlum olur ki, onlara 8 aydır heç bir məktub gətirilməyib.

**❑ E.SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 156 (7045) 21 iyul 2018



# "Kandidat nauk"ların hörmətli vaxtı

**Samir SARI**

**İndiki cavanlar bilməz, bizim vaxtımızda alim olmaq zırıltı prestijə malik şey idi. Hələ doktorluğu, professorluğu demirəm, adicə elmlər namizədi olmaq, indiki parametrlərlə götürsək, vergidə, gömrükdə şöbə müdiri olmağa bərabər status idi. Pulu pul, hörməti hörmət...**

Elmlər namizədinin elçiləri əliboş qayıdardılarmı? Əsla. Elmlər namizədi kimin qapısına elçi göndərsəydi, qızı verərdilər, hələ qonşular o qıza bəxtəvərlik oxuyardılar.

Şənliklərdə elmlər namizədinin yeri başdan idi, məclisin ən yaxşı vaxtında tost demək üçün sözü onlara verərdilər. Rəislər, prokurorlar, hakimlər elmlər namizədinə xüsusi hörmət qoyardılar, o, nəsə bir xahişə gəlibsə, işini düz-qoş edərdilər.

Elmlər namizədləri ali məktəblərə qəbul zamanı imtahanlarda iştirak edərdilər və bu, onlara əlavə hörmət-izzət, pul-para qazandırardı.

Bir ara dəb olmuşdu, raykom katibləri nəyə görəsə pul basıb elmləri namizəd olurdular. Bu onların yerini bərkidirdi, çünki hansısa rayona bir alimin rəhbərlik etməsi daha üstün tutulurdu. Sonradan adına "partşkola" deyilən Ali Partiya Məktəbini qurtarmaq dəb oldu, "raykom"ların "kandidat nauk" olması tendensiyası zəiflədi.

Təbii ki, sovet dövründə elmlər namizədi olmaq asan iş deyildi. Bundan ötrü gərək həmin arzuda olan şəxs aylarla, hətta illərlə yanını yerə basıb kitabxanalarda kitab oxuya, arxivlərdə eşələnəydi. Bir də görürdün, gənc aspirantın yaşı gəlib dirənib 40-a, amma o hələ də elmlər namizədi deyil, dissertasiya müdafiəsi ildən-ilə keçir, ləngiyir.

Amma elə olurdu ki, bəzi adamlar (o cümlədən "raykom"lar və s. bu kimi vəzifə sahibləri) 6 ayın içində namizədlik dissertasiyası müdafiə edib elmi dərəcə alırdılar. Bu, təkcə şans məsələsi deyildi, ortada babat "mani-mani" amili olurdu və bu işə mane olan yox idi.

Bu, yeni bir "yazıçı" kütləsinin meydana çıxmasına səbəb olmuşdu. Onlar rəhbər işçilərə namizədlik, doktorluq dissertasiyası yazır, pul-para qazanırdılar.

Belə-belə işlər vardı.

Amma sonradan elmlər namizədi, elmlər doktoru, hətta akademik olmaq dəbdən düşdü, bütün prestijini itirdi. O dönəmlərdə sovet dövrünün məşhur professorlarından olan şair Famil Mehdi "Dilən, professor, utanma, dilən" başlıqlı şeir yazmış, müasir alimlərin acınacaqlı maddi durumunu göstərmişdi.

Belə olandan sonra ta kim dosent, doktor, professor olmaq istərdi ki? Ondansa şadlıq sarayında videooperator olmaq, hətta saat 10-da oynaya-oynaya bəy-gəlinə məcməyidə aş gətirmək daha gəlirli, daha prestijli iş idi.

Hər kəsə elə gəlirdi ki, "kandidat nauk"ların erası keçmişdə qaldı. Elə olmadı. Gün gəldi ki, alim olmaq yenidən dəbə mindi. Pul var, vəzifə, mandat var, evlər, villalar, avtomobil qarajı var, bə nə çatmır? Alim adı.

Bu yerdə köhnə dissertasiya yazıçıları yada düşdü. Qoy onlar da beş manat qazansınlar. Hər kəsə sərf edirdi.

Ali təhsil və ya elmi dərəcə pullu adamların nəyinə lazımdır, bu onlara nə verəcək? Mütəxəssislər bu fenomeni hələ də çözmüş deyil. Hətta psixiatrlar da mat qalır, izah edə bilmirlər.

Bəlkə bu, keçmiş günlərə duyulan nostaljidən qaynaqlanır? Çoxlarının könlündə elmlər namizəd olmaq (və ya elmlər namizədinə ərə getmək, professor qızı almaq) şövqü vardı ha, bəlkə bu, o məsələdir?

Ya da adamlar hesab edir ki, filan elm üzrə fəlsəfə doktoru olsalar ("kandidat nauk"luğun indiki adı belədir), məclisdə yerləri başdan olacaq, hamı onlara hörmət edəcək? Belə düşüncə varsa, yanlışdır.

Mən özüm bir toyda şəxsən görmüşəm: nəslin elmlər doktoru, yeddi kitabın müəllifi qaldı kənarda, tamada tost demək üçün sözü "nəslin ziyalısı" deyə təqdim etdiyi maklerə verdi... Adam 8-dən qayıtmışdı, orta məktəbi bitirməmişdi.

Yəni indiki dövrdə el arasında hörmətli olmaq üçün pullu olmaq kifayətdir. Pullu adam istədiyi qədər səfeh-səfeh danışa bilər, kasıb fəlsəfə doktorları susub duracaqlar, danışmaq istəyəndə də camaat deyəcək, siz bir dayanın, görmürsünüzmü, kişi qızıl xırdalayır.

Hal-qaziyə belə olandan sonra, vallah, nə Röya Ayxana (Nəcəfova) universitet diplomu lazımdır, nə də Nazpəri xanıma "fəlsəfə doktoru" adı.

---

**Artıq neçə gündür ki, Türkiyə mətbuatının əsas manşet xəbərləri özünü "Mehdi" kimi təqdim edən, "hoca" ləqəbli Adnan Oktarın həbsi, ortaya çıxan dəhşətli, iyrənc faktlarla bağlıdır. Türkiyə polisinin keçirdiyi əməliyyat zamanı həbs edilən "hoca" və onun cinayətkar şəbəkəsi ilə bağlı ortaya çıxan məlumatlar, şahidlərin açıqlamaları, etirafları gündəmi silkələməkdə davam edir.**



# Azərbaycanlı deputatdan Adnan Oktar haqda sərt sözlər

## "Son fəaliyyəti daha iyrənc idi, İslamı gözdən salmaqla məşğul idi..."

Bundan əvvəl də Adnan Oktar İslam dinini gözdən salan, yalançı ilahiyyatçı, əsl mason, İsrail agenti kimi tanınırdı. Lakin nədənsə Türkiyə rəsmiləri bu vaxta qədər bütün bunlara göz yumurdu. "Hoca" isə özünü "İslam alimi" kimi təqdim edərək, din pərdəsi altında rəhbərlik etdiyi televiziya, sosial şəbəkələr vasitəsilə əxlaqsızlığı yaymaqda davam edirdi.

**Ötən gün "hoca"nın keçmiş müridlərindən olan Fırat Develioğlu canlı yayımda "Adnan Oktarın "Mehdi" olduğuna inanırdıq, o, cihat və zəkat bəhanələri ilə gəncləri aldadırdı" açıqlamalarını verdi. F.Develiğlu "hoca"nın şəbəkəsinə necə daxil olduğu barədə də ilginc məlumatlar bildirib:** "1986-cı ildə ailənin bir övladı kimi İslam dinini yaxından öyrənmək üçün Adnan Oktarın şəbəkəsinə qatıldım. Təxminən 90-cı illərə qədər oradakı qızların əllərinə belə toxunmurduq. Lakin 90-cı illərdən sonra vəziyyət dəyişməyə başladı. İlk əvvəllər ağlımızda dindən başqa heç nə yox idi. Hər şeyin məntiqi dinə bağlanırdı. Şəbəkənin artıq cinayətkar dəstəyə çevrildiyini görüb 1999-cu ildən oradan ayrıldım. Həmin ilə qədər təxminən 100-200 minə yaxın insan maraq xətrinə bu şəbəkəyə gəlib-gedib. Onların arasında məşhurlar da var idi".

Həbsdən sonra aparılan ilk araşdırmalarda Adnan Oktarın rəsmən masson olduğu, İsraillə daim əlaqələr qurduğu ortaya çıxdı. "Hoca" həbs olunduqdan sonra ilk açıqlamasında heç bir günahı olmadığı, gördüyü işlər, qurduğu əlaqələrin hamısının Türkiyə naminə olduğunu bildirirdi.

"Hoca" həbs olunandan az sonra onun tərəfindən təcavüzə uğradığını iddia edən 35 qız polisə şikayət edib. Bu şikayətçilərin 15 nəfəri 11-17 yaş arası olan zaman təcavüzə uğradığını bildirib. Hətta adı gizli saxlanılan 16 yaşlı qız anası tərəfindən gizli şəbəkəyə təhvil verildiyini deyib.

**Şikayətçilərin bəziləri artıq mətbuata danışıb və onların söylədikləri faktlar iyrənc və dəhşətlidir. Məsələn, 16 il sonra Adnan Oktarın şəbəkəsində olan, daha sonra bu şəbəkədən güclə canını qurtara bilmiş 34 yaşlı G.S.-in sözlərinə görə, "hoca" daim "dində lezbiyanlıq halaldır" deyərək qızları bir-biri ilə cinsi əlaqəyə girməyə məcbur edirmiş:** "Adnan Oktar xəstəliyi ucbatından heç kimlə cinsi əlaqəyə girə bilmirdi. Amma oğlanları və qızları hər gün bir-biri ilə əlaqəyə girməyə məcbur edirdi. O deyirdi ki, bunu din buyurur. Siz kişilərin bütün ehtiyaclarını qarşılamalısız, əks halda, mələklər sizi lənətləyər".

**Qızın sonrakı açıqlamaları daha dəhşətli olub. Belə ki, o bildirib ki, şəbəkə onu qardaşı ilə də cinsi əlaqədə olmağa məcbur edib:** "Məni öz aralarına aldıqlarında hələ kollecdə oxuyurdum. Bir neçə dəfə onun evlərindən birinə gedib-gəldim. Daha sonra yanıma bir adam qoydu və hər yerə onun nəzarəti altında gedirdim. Əvvəl elə bilirdim bu, mənim təhlükəsizliyim üçündü, yalnız sonra anladım ki, qaçıb burada baş verənləri kiməsə danışmayım deyə belə bir addım atıb. Bir dəfə məni qrupda bir neçə oğlanın qarşısına atdı və münasibətə girməmizi əmr etdi. Məni öz qardaşımla cinsi əlaqəyə məcbur etdi. Etiraz edəndə isə bunun Mehdinin əmri olduğunu dedi".

Şikayətçilərin bir çoxu qeyd edib ki, Adnan Oktar xəstə olduğu üçün qadınlarla yaxınlıq edə bilmirmiş. Bu səbəbdən qızları seksə təhrik edərkən özü kənardan izləməyi sevirmiş. Bəzən isə azyaşlı qızların bakirəliyini əlləri ilə toxunub pozurmuş. Digərləri isə bildirib ki, "hoca" qızlara baş örtüyünün haram, bikini geyiminin isə halal olduğunu deyirmiş.

Təbii ki, bütün bunlar İslam dinini gözdən salır, insanların bu dinə olan inamını şübhə altına alırdı.

Bu arada bir faktı qeyd edək ki, özünü "Mehdi" kimi təqdim edən Adnan Oktar bu cür iyrənc təhlilləri ilə bağlı "Harun Yəhya" imzası ilə kitablar da çap edirdi. Çox təəssüf ki, onun kitabları Azərbaycana da ayaq açmışdı. Məlumata görə, daha çox massonluğu və əxlaqsızlığı təbliğ edən həmin kitablar Bakıdakı kitabxanalara çox ucuz qiymətə, 2-3 manata satılır, bəzən isə pulsuz verilirmiş.

**"Adnan Oktar əslində Türkiyədə bizə məlum olan Sasani dini görüşünün təmsilçilərindən biridir". Bu sözləri azərbaycanlı deputat Fazil Mustafa mövzu ilə bağlı "Yeni Müsavat"a danışarkən dedi. Deputat da vurğuladı ki, Adnan Oktar öz davranışları ilə İslam dinini hörmətdən salan şəxslərdən biridir:** "İlkin vaxtlarda onun müəyyən yaradılışla bağlı, sanki elmi görünə biləcək təhlilləri maraq doğururdu, din xadimi kimi diqqət cəlb edirdi. Bir qədər də əxlaqsızlığı təbliğ edən, guya qadın azadlığını diqqət mərkəzinə gətirib bunu əxlaqsız formada təqdim edən, gerçək qadın azadlığına dəstək verən şəxs kimi tanınırdı. Türkiyədə də onun müəyyən qədər izləyiciləri var idi. Ola bilsin ki, Azərbaycanda da sosial şəbəkələrdə ona dəstək verənlər var idi. Deyərdim ki, Adnan Oktar Sasani dünya görüşünün bir qalıntısıdır. Türkiyədə bir qədər sonra irqçiliyi təbliğ edib gündəmə gətirən, səviyyəsiz bir din adamı görüntüsü verdi. Deyə bilmərəm ki, onun haqqında səslənən ittihamlar nə dərəcədə əsaslı və ya əsaslı deyil. Amma hər halda, fəaliyyəti o qədər də dinə fayda verən, onun modern üslubda tanınmasına yardım edəcək bir fəaliyyət sayılmazdı. Hər halda, ona qarşı yönələn ittihamlar hüquq pozuntusu ilə bağlı olarsa və məhkəmə hökm verərsə, bunları da nəzərdə tutacaq. Məlum olduğu kimi, onun fəaliyyəti heç də xoş deyildi. Onun son fəaliyyəti daha iyrənc forma almağa başlamışdı. Bu da İslam dininin mənfi bir formada tanınmasına səbəb olurdu".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 156 (7045) 21 iyul 2018

**“Baxış bucağı”**

**Bu günlərdə mediada onkoloji xəstəliklərlə bağlı qorxunc statistika açıqlandı. Milyonlarla insanın qarşıdakı illərdə onkoloji xəstəliyə düçar olacağı və Azərbaycanda da bu dəhşətli mərəzə yoluxanların sayının getdikcə artması Səhiyyə Nazirliyinin baş onkoloqu, Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimli ilə söhbətimizi zəruri elədi. Azad həkimlə söhbətimizdə vətəndaşlarımızı maraqlandıran digər suallara da aydınlıq gətirməyə çalışdıq.**



# Ölkənin baş onkoloqundan “Yeni Müsavat”a ilginc açıqlamalar

## Azad Kərimli: “Camaat arasında elə bir xof yaradıblar ki, onkoloji xəstə oldunsa, həyat bitdi”

***- Azad həkim, bu günlərdə belə bir statistika açıqlandı ki, ötən il Azərbaycanda 105 uşaq xərçəngdən dünyasını dəyişib...***

- O məlumatı haradan götürmüsünüz?

***- Bu, Dövlət Statistika Komitəsinin məlumatındandır.***

- Ola bilər. Mən onu dəqiq deyə bilmərəm. Əvvəlcə qeyd edim ki, 2013-cü ilədək Azərbaycanda uşaq onkologiyası olmayıb. Kimin imkanı var idi, uşaqlarını xaricə aparırdı, imkansızlar da yarı düzgün, yarı qeyri-düzgün müalicələr alırdılar. Sağ olsun ölkəmizin prezidenti İlham Əliyev, birinci vitse-prezident Mehriban xanım Əliyeva, Respublika Milli Onkologiya Mərkəzinin baş direktoru, akademik Cəmil Əliyev. Məhz bu insanların səyi nəticəsində ölkəmizdə uşaq onkologiyası inkişaf etdirildi. Mehriban xanım 2013-cü ildə Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasının açılışını etdi. Axı bu vaxta qədər o sahə olmayıbsa, deməli, kadr da olmayıb. Açılışa qədər akademik Cəmil Əliyevin göstərişi ilə, bizim Tibb Universitetinin məzunlarından olan həkimlərimizin hesabına milli kadrlar hazırlandı. Həmçinin Belarusdan professor Reyman İsmayılzadə dəvət olundu. Hansı ki, bu gün də Uşaq Onkoloji Klinikasına rəhbərlik edir. Hazırda bizdə Uşaq Onkologiyası var gücü ilə işləyir. Bəli, uşaqlar arasında da bu xəstəlik yayılıb. Bu vaxta qədər olub, sabah olacaq, olmayacaq, bunu Allah bilir.

***- Uşaqlar arasında yayılmasının səbəbi nədir?***

- Əsasən uşaqlarda emberional xərçəngə təsadüf olunur ki, bu da rüşeymdən başlayır. Bu dəqiqə onkologiyada 100 faiz nə isə demək mümkün deyil. Çünki bunun yaranma səbəbi dünyada tam müəyyən olunmayıb. Amma müəyyən ağlabatan, qəbul olunan amillər var. Amma böyüklərlə müqayisədə uşaqlarda bu xəstəliyə tabe olmaq haradasa 99-100 faiz mümkündür.

***- Ölkəmizdə hazırda neçə uşaq xərçəng daşıyıcısıdır?***

- Haradasa 600-ə yaxın uşaq müalicə olunur. Ümumiyyətlə, bu xəstəliklə bağlı heç kəsdə xof yaratmaq düzgün deyil!

***- Amma rəqəmlərlə müqayisə etsək, onkoloji xəstəliklərdən ölənlərin sayı heç də az deyil.***

- 2017-ci ilin statistik məlumatında 45 756 nəfər qeydiyyatda onkoloji xəstə var. Bunlardan da 17 527 nəfərini 5 il və 5 ildən yuxarı yaşayanlar təşkil edib. Onların arasında 25-30 il yaşayanlar da var. 2017-ci ildə xərçəng xəstəliyindən 7536 nəfər dünyasını dəyişib. İnsanlarda belə bir fikir yarana bilər ki, xərçəng xəstəliyi diaqnozu qoyuldu, adam dünyasını dəyişdi. Yox! Bunların arasında 5 il, 10 il yaşayanlar da olub. Hətta bunların dərinliyinə gedilib tam araşdırılsa, heç bunların əksəriyyəti xərçəng xəstəliyindən dünyasını dəyişməyib. Başqa amillərdən dünyasını dəyişib. Ümumiyyətlə, xəstəliklərin hamısı qorxuludur. Ürək xəstəlikləri qorxulu deyil? Dünyada ölümə görə ürək-damar xəstəlikləri birinci yerdədir. Nevroloji xəstəliklər qorxulu deyil? Görün avtoqəzadan nə qədər insan dünyasını dəyişir. Hamısı qorxuludur.

**“Qadınlar 35-40 yaşından sonra ildə bir dəfə, iki ildən bir mamaqrafiyadan keçməlidirlər. Kişilər...”**

***- Doktor, bayaq dediniz ki, onkoloji xəstəliyin səbəbləri hələ dünyaya məlum deyil. Bəs insanlar bu bəladan qaçmaq üçün nələrə əməl etməlidirlər?***

- Gəlin açıq danışaq, xəstəlik haqqında əhali arasında maarifləndirmə işi aparmaq lazımdır. Amma bu, yoxdur. Qardaş, bu, təkcə bizim, Milli Onkologiya Mərkəzinin gücündə olan məsələ deyil. Ümumiyyətlə, xərçəng xəstəliyi ilə tək onkoloqlar mübarizə aparmamalıdır, səhiyyənin bütün sahələrində işləyən həkimlər mübarizə aparmalıdır, bu, bir. Digər tərəfdən, əgər biz bunu qorxulu, təhlükəli xəstəlik kimi qəbul ediriksə, buna qarşı bütün kütlə mübarizə aparmalıdır. Kütlənin də mübarizəsi nədən ibarət olmalıdır: sağlam cəmiyyət, sağlam ekologiya, sağlam qidalanma. Dərinliyinə getsək, bu, təkcə insanlara xas olan xəstəlik deyil, təbiətin xəstəliyidir. Canlı aləm yarandığı gündən digər xəstəliklər kimi, bu xəstəlik də olub. Vəhşi heyvanlarda, bitkilərdə, ağaclarda, ev heyvanlarında olub. İnsanlarda da çox təsadüf olunub. Çünki təkamül, şüur və demoqrafik göstəricilər var. Əhalinin sayı artdıqca təkcə xərçəng yox, digər xəstəliklər də artacaq.

***- Bölgələrdə yaşayan insanların mərkəzə gəlib müayinə olunması asan məsələ deyil. Bəs onlarla bağlı məsləhətiniz nədir?***

- Dünya təcrübəsində proqramlar var, xəstəliyin vaxtında aşkar olunması üçün. O, bizdə də var. Bizim həyətdə iri maşınlar var. O səyyar maşınların köməyi ilə 14-15 aparıcı mütəxəssislərlə bölgələrə gedirik. Əhali arasında profilaktik baxış keçiririk. Olur ki, bu xəstəliyi 1-ci, 2-ci mərhələdə aşkarlayırıq.

***- Bu müayinələr dövlət hesabına aparılır?***

- Bəli, o yoxlamaların hamısı təmənnasızdır. Elə bu yaxınlarda Ağcabədi rayonunda, Taxtakörpüdə məskunlaşmış Laçın əhalisini yoxladıq. Biz 15 nəfərdə xərçəng xəstəliyindən şübhələndik və onları Bakıya dəvət etdik. Ordan da Horadizdəki Füzuli camaatını və Cəbrayıldakı Cocuq Mərcanlı əhalisini yoxladıq. Qeyd edim ki, xərçəng diaqnozunu qoymaq elə də asan məsələ deyil, bunun üçün bir çox müayinələrdən keçmək lazımdır. Ən əsas nöqtəni pato-histoloji morfologiyanın nəticəsinə əsasən qoymaq lazımdır. Yəni mikroskop altında götürülən tikə baxılır və ondan sonra dəqiq deyilir ki, burada xərçəngdir, onun hansı növüdür. Praktik həkimlər kimi onkoloqlar o diaqnozu bilirlər, qoyurlar, ancaq yenə də o histoloji müayinənin nəticəsinə əsasən son nöqtə qoyulur. Bu, elə-belə mümkün deyil.

***- Milli Onkoloji Mərkəzin imkanlarının artması vətəndaşların xaricə, müayinə üçün axınını dayandıra bilibmi?***

- Bizdə atalar sözü var: “Qonşudan qalma dala”. Müstəqil ölkənin müstəqil vətəndaşlarıyıq. Hamının seçim etmək hüququ var. Heç kimə demək olmaz ki, sən bura getmə!



**“Vaxtında diaqnoz qoyulduqda xərçəng yüz faiz müalicəyə tabe olan xəstəlikdir”**

***- Bu da sirr deyil ki, uzun illər əksər insanlarımız “ucuz müalicə və keyfiyyətli dərmanlar” üçün İrana axın elədi.***

- Xeyr, onlar hamısı camaatın arasında gəzən söhbətlərdir. İrana getdi, nə oldu? Ya Türkiyəyə getdi, nə dəyişdi? O xəstələr haraya getsələr, əvvəl-axır buraya müraciət edirlər. Çünki Azərbaycanda, burada qeydiyyata düşməlidirlər. Onunla heç nə dəyişmir. Düzdür, axın xeyli azalıb, ancaq yenə gedirlər. Mən ona görə də deyirəm ki, əhali arasında maarifləndirmə işi aparmaq lazımdır, o da tək bizim gücümüzdə deyil. Bu gün ən böyük təbliğat maşını nədir? Televiziyalar. Gəlin açaq istədiyiniz kanalı. “Filan müğənni bu il harada istirahət edəcək”, “Bu, filankəsin qarderobu”. Mən bilmirəm, bunlar camaat üçün çox maraqlıdır? Bunun nə mənası var? Dilləndirəndə də deyirlər ki, “camaat sevir, baxır”. Sən bunu göstərirsən, camaat yazıq buna baxır da. Başqasını göstərsən, ona baxarlar. Ya da “filan aktrisanın ad günü”. Ay qardaşım, bu ölkədə bir professor-fizik, professor-kimyagər, professor-həkim yoxdurmu çıxarıb onun ad gününü keçirəsən? Axı onun bu cəmiyyətə, xalqa verdiyi xeyir o birisindən çoxdur. Heç olmasa, ayda 2-3 dəfə televiziyalarda elmi-publisistik proqram olsun. Mən demirəm orada söhbət tək onkologiyadan, səhiyyədən, təbabətdən getsin, elmin bütün sahələrini əhatə eləsin. Bu, həm şagirdlər, həm tələbələr üçün vacibdir. Orada elə mövzu qoymaq olar ki, hamıya maraqlı olar, hamı baxar.

***- Amma telekanallar özəl tibb müəssisələrini təbliğ edirlər. Bəs buna münasibətiniz necədir?***

- Çünki ödənişlidir. Normal sivilizasiyalı ölkədə tibb sahəsində də özəl sektor olmalıdır, bu, normaldır. Amma onlar onkoloji xəstəni əməliyyat edirlər. Onkoloji prinsiplərə uyğun edirlər? Yox. Onkoloji cərrahi əməliyyatın da öz prinsipləri var, onlara tam riayət olunmalıdır, bu, birmənalıdır. Xəstələr 3-5 ildən, 15 ildən sonra da olsa, bura gəlirlər. Ancaq ilk gündən bura müraciət etsələr... Bizim mərkəzdə Diaqnostika, Cərrahiyyə, Müalicə, şüa terapiyası korpusları, Uşaq Onkologiyası var, bunlar hamısı bir şəhərciyin içindədir. Yəni burada xəstəni izləmək asandır. Xaricdə əməliyyat edirlər, ancaq şüa müalicəsi almaq üçün şəhərin bu başından o biri başına gedir. Amma burada hamısı bir yerdədir və bizim işimizi xeyli asanlaşdırır. Bizə xaricdən çoxlu qonaqlar gəlir. Təcrübə mübadiləsi də var, elmi mübadilə də, maraqlananlar da.

***- Xəstələr necə?***

- Xəstələr də gəlir. İrandan, Qazaxıstandan, Orta Asiyadan, Rusiyanın bizə yaxın bölgələrindən gələnlər olur.

***- Bizimkilər İrana gedir, demək, oradan da bura gəlirlər?***

- Bəli, gəlirlər. Ona görə də deyirəm ki, camaatda inam oyatmaq lazımdır. Birincisi, heç vaxt xəstəlikdən qorxmaq lazım deyil. Vaxtında diaqnoz qoyulduqda xərçəng yüz faiz müalicəyə tabe olan xəstəlikdir. Mən heç kəsin ürəyinə qorxu salmaq istəmirəm, əksinə, həmişə istəyirəm ki, camaat ürəkli olsun. Gəlsinlər, vaxtlı-vaxtında müayinə olunsunlar. Biz arzu edirik ki, heç kəsdə nəinki onkoloji, digər xəstəliklər də aşkar olunmasın, hamı salamat yaşasın. Qadınlar 35-40 yaşından sonra ildə bir dəfə, iki ildən bir mamaqrafiyadan keçməlidirlər - süd vəzilərini yoxlatmaq üçün. Çünki qadınlar arasında ən çox təsadüf olunan süd vəzinin və uşaqlıq borusunun xərçəngidir. İndi baxaq, görək gəlib keçirlər? Yox. Gedəcək öz gözəlliyi ilə bağlı hansısa bir əməliyyat etdirəcək, düzdür? Amma qadının gözəlliyi onun süd vəziləridir. Bu gün gənc analar uşağa süd vermir ki, görünüşü pozular. Hansı ki, bunlar da fəsadlar yaradır. Elə şeylər var ki, onlar təbiətin yazdığı və qaçılmaz qanunlardır, onlara hökmən riayət etmək lazımdır. Kişilərdə ən çox ağciyərin, prostat vəzin xərçənginə təsadüf olunur. Bu xəstəliklərə qarşı vaxtında mübarizə aparmaq lazımdır. Heç kəsi qolundan tutub müayinəyə aparmaq mümkün deyil. Hər kəsin öz canında olmalıdır. İbn Sinaya sual edirlər ki, ən ağır xəstəlik hansıdır? Deyir: “Öz sağlamlığına qarşı laqeyd qalmaq”.

Yenə deyirəm, əsas güc gəlib dayanır maarifləndirmənin üstündə. Biz də camaatla görüşürük. Görürsən deyirlər ki, “yaman çoxalıb e bu xəstəlik”. Deyirəm haradan bilirsən? Qayıdır ki, “o gün onkologiyaya getmişdim, nə qədər millət var”.

***- Bəli, eyni sözləri çox eşidirik...***

- Ay qardaşım, bir xəstənin yanında gəlməyəndə 4 nəfər gəlir. Gəlsinlər, amma nəticədə insanların arasında başqa fikir formalaşır axı. Ki, “xəstəlik geniş yayılıb”. Xəstəyə deyirsən ki, get, UZİ kabinetində müayinədən keç! Onunla birgə 4 nəfər də gedir orada durur. Qıraqdan baxana da elə gəlir ki, bu xəstəlik necə artıb!

***- Milli Onkologiya Mərkəzində neçə çarpayı var?***

- 1200. Bizə yaxın digər ölkələrlə nisbətdə Azərbaycanda onkoloji xəstələrin sayı azdır.

***- Ölkəmizdə qeydiyyatda 45 min xəstənin olması ilə bağlı rəqəm real görünürmü? Bəlkə insanlar özləri xəstəliyindən xəbərsizdir, yaxud müalicə olunmaq imkanları yoxdur deyə, statistikadan kənarda qalıblar?***

*(davamı növbəti sayımızda)*

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

## **Azad Kərimli:** “Camaat arasında elə bir xof yaradıblar ki, onkoloji xəstə oldunsa, həyat bitdi”



# Nazpəri xanımın şokoladları

Zamin HACI
zaminhaci@gmail.com

"Bilinməz nə vaxtdan hərlənir bu tas;
Nə zaman pozular bu gözəl əsas.
Belə nazik fikri dərindən duyub,
Ağıl ölçüsüylə dərk etmək olmaz"

*(Ömər Xəyyam)*

**Nazpəri Dostəliyeva fəlsəfə elmləri doktoru adı alıb Sokrat, Platon, Aristotel, nə bilim, Nitşe və Şopenhauer yolunda nəğməli addımlar atacaqdı ki, axmaq və paxıl adamlar imkan vermədilər. Tağı müəllim demiş, hərə bir yandan dızıldaşdı, Nazpəri xanım da məcbur oldu doktor diplomunun şəklini İnstaqramdan silsin. Ona doktor adı vermiş yekə-yekə kişilər isə utanmadan bunu boyunlarından atdılar, hətta imzalar saxta elan olundu. İndi Nazpəri xanım uzaqdan filosof diplomuna baxıb "Nə olar, Allahım, ayırma bizi" oxuyur, diplom isə deyir get, vəfasızsan bu dünya kimi. Bu əhvalat bizə Röyanın BDU yurfakından paxıllar üzündən qovulmasını xatırlatdı.**

Bəlkə də iqtidar bu yolla İsa Qəmbərin oğlunun toyunda oxumasının qisasını Nazpəri xanımdan aldı, nə biləsən. Azərbaycanda belənçik qisas hadisələrinə çox rast gəlmişik. Elə vaxtlar olub müsavatçının uşağını məktəbdən qovublar, deyiblər sənin atan vandalizmlə, ekstremizmlə, dövlətçilik əleyhinə fəaliyyətlə məşğuldur. "Get, atan gəlsin" - necə deyərlər. Ata da həmin vaxt Bayıl türməsində oturdu, gələ bilmirdi. Ancaq indi, əlbəttə, belə şeylər mümkün deyil, hətta hüquq-mühafizə orqanları uşaqlara pivə satanları tapıb cəzalandırmaq fikrindədir. Uşaqlarımız bu dərəcədə dövlət qayğısı ilə əhatə olunubdur.

Sözgəlişi, bizim uşaq siyasətimiz bir qədər gülməli formalar da alır. Misal üçün, elə bu uşaqlara siqaret, pivə-araq satmağın guya qabağını alırıq, eyni zamanda həmin uşaqların idmanla məşğul olması üçün normal stadionlar, uşaq idman məktəbləri yox səviyyəsindədir. Avroliqada oynayan futbol komandalarımız, o cümlədən milyonlarla büdcə pulunun silinmə mənbələrindən biri "Neftçi" komandası uduzub turniri tərk elədi. Səbəb isə aşağı qatlardan futbolçu hazırlayan məktəblərimizin yoxluğudur. Almaniyada hər il uşaq futboluna cəmi 10 milyon avro xərclənir. Bir neçə il ərzində orada 900-ə yaxın uşaq idman məktəbi yaradılıb. Özü də bunlar dövlətin yox, şəxsi şirkətlərin, biznesin hesabına qurulub. Nəticədə Almaniyada hansı daşı qaldırsan altından məşhur futbolçu çıxır. Bizimkilər isə ispan klubunun yaxasına ildə 20 milyon avroya mənasız şüar yazırdılar.

Keçən il yadıma gəlir, bir uşaq mediada reklam olunurdu. Deyirdilər bu, pəhləvandır, Qəbələdə sorağı yayılıb, qarnında çəkiclə daş sındırırlar, şüşə sınıqları üstündə gəzir və sairə. Heç maraqlanan yox idi ki, bir uşaq nə üçün belə təhlükəli tryuklarda iştirak edir. Əlbəttə, əsas pivə içənlərdir, onları içirdənləri tutan kimi ədalət zəfər çalacaqdır.

Gör Nazpəri xanımın doktorluq işi bizi hara gətirib çıxardı. Axı o, Qərb və Şərq aşıq məktəblərimizin əlaqələrini araşdırırmış. Həm də Nazpəri xanım mahiyyət etibarilə şirin insandır, onun mehribanlıq yağan əsl şərqli, müsəlman, azərbaycanlı xanımı çöhrəsinə baxanda insan fəlsəfi düşüncələrə qərq olur. Elə vaxtilə bunu yaxşı dərk edən iş adamları xanımın fotosunu şokolad qutularına üz qabığı edirdilər. 90-cı illərdə bizim dükanların şirniyyat bölümünə yaraşıq verən o məhsulun adı məhz "Nazpəri şokoladı" idi. Müəlliminə 8 mart münasibətilə, qayınanasına Xirosimanın ildönümünə görə, sevgilisinə 14 mart günündə... Hər bir azərbaycanlı orta statistik kişinin həyatda ən azı bir dəfə o şokolad qutuları ilə ünsiyyəti olmuşdur. Həmin qutular tariximizin bir parçasıdır.

Uzun sözün qısası, Nazpəri xanım ölkəmizin alim bazarında dəllallıq edənlərin çoxundan güclü alimdir. Vallah, tam səmimi sözümdür. Elə tiplər tanıyırıq ki, yaltaqlıq, korrupsiya, yalançılıq hesabına çoxdan akademik adı alıblar. Elmi mərkəzlərimiz, universitetlərimiz xiyardan elektrik alınması, mələyin uçuş sürətinin tapılması, nanosarımsaqlı qatıq, Sarı gəlinin saçlarına qoyulan boyanın Qarabağda bitən gəndalaşdan alınması üsulları, nə bilim, qoyun qığı və Manna dövləti arasında əlaqələri araşdıran sarsaq tiplərlə doludur, onları heç görən olmur, hamı utanmazcasına düşdü Nazpəri xanımın üstünə. Haqqı var çəlləyə girib bir də bizimlə danışmasın.

O şokoladlar piltə-piltə burnumuzdan gələcəkdir, baxarsınız.



# Paşinyan üçün 3 yol - ikisi Moskvaya, biri Bakıya aparır

## Kremlin Gümrü xəbərdarlığının ardınca Peterburq sınağı; Moskvadan Ermənistan rəhbərliyinə göndərilən siqnallar artır; **Rusiya nəşri:** "Erməni baş nazir ölkəsini Qərb üçün satışa çıxarsa..."

**Ermənistanda bir neçə gün öncə Gümrüdəki Rusiya hərbi bazası ilə bağlı yaşanan və yerli əhalini xofa, Ermənistanın təzə rəhbərliyini isə şoka salan insident Kremlin Paşinyan hökumətinə içəridən (!!) ilk ciddi xəbərdarlıq mesajı sayıla bilər. Xatırladaq ki, söhbət bazanın bir qrup hərbçisinin icazəsiz olaraq hərbi texnika ilə birgə Panik kəndində girərək hərbi təlim adı ilə havaya atəş açması və erməniləri qorxuya salmasından gedir. İnsident zamanı qorxudan ürəyi gedənlər də olub.**

Doğrudur, az sonra hərbi baza rəhbərliyi hadisəyə görə üzr istəyib və günahkarların cəzalandırılacağını bildirib. Lakin artıq olan olub. Mesaj verilib, hədəf vurulub. Aydındır ki, bu sayda hərbi texnika baza ərazisindən hərbi komandanlığın xəbəri olmadan, sakitcə çıxarıla bilməzdi. Hərbi komandanlıq isə özbaşına deyil və Moskvadan bixəbər belə "təxribata" gedə bilməz. Hadisənin baş nazir Paşinyanın Brüssel səfərindən cəmi bir neçə gün sonraya təsadüf eləməsi sonuncu qənaəti daha da gücləndirir.

*****

Beləcə, Moskva artıq ipə-sapa yatmayan və getdikcə Qərbə sarı daha çox boylamaqla Rusiyanın səbri ilə oynayan Paşinyan hökumətinə özünü yığışdırmaq üçün aşkar siqnallar göndərməyə başlayıb. Yerli hərbi ekspertlərdən birinin təbirincə desək, Gümrü insidenti ilə Rusiya Ermənistana sanki bildirmək istəyir: "Sizin sahibiniz bizik və burda nə istəsək, edə bilərik".

Rusiya isə komandasında bircə rusiyayönlü kadra belə yer verməyən Paşinyan iqtidarını ağla gətirmək üçün deyəsən, gerçəkdən də nəsə eləməyə hazırlaşır. Bunu aparıcı Rusiya KİV-lərində az qala, hər gün gedən sərt tənqidi yazılardan və rusiyalı siyasi ekspertlərin şərhlərindən aydın görmək olar.

**Məsələn, "Yeni Müsavat"ın məlumatına görə, lenra-ru saytında Ermənistanla bağlı sərt, bir az da kinayəli stildə məqalə yer alıb. Məqalədə deyilir:** "Rusiyaya "dost" ölkə olan Ukraynanın əkiz bacısı - Ermənistan peyda olmaqdadır. Özü də eyni "müsbət" keyfiyyətlər toplusu ilə. Bu, çox kədərlidir, ələlxüsus ona görə ki, lap yaxınlaradək İrəvan Moskvaya qarşı çox loyal idi. İndi isə ikitərəfli qarşılıqlı əlaqələrin perspektivi haqda ciddi düşünmək lazım gəlir. Və düşüncələr də yaxşı heç nə vəd eləmir".

**Məqalədə bildirilir ki, belə qəmli nəticələrə Ermənistanın yeni peyda olan lideri Nikol Paşinyanın hərəkətləri sövq edir:** "O Nikol Paşinyan ki, Ukrayna prezidenti Pyotr Poroşenkonun addımlarını az qala, təkrarlamaqla məşğuldur. Sonuncu ilə bizim dostluğumuz, bəlli olduğu kimi, alınmayıb. Təzə erməni liderinin hərəkətlərində ən çox narahatlıq doğuran ona tapşırılan dövlətin xarici siyasətini qəsdli şəkildə Qərbə sarı döndərməsidir. Üstəlik, o, ölkəni açıq-aşkar Rusiyaya düşmən münasibətdə olan NATO-ya inteqrasiya etdirmək istəyir. Hər necə olmasa, Paşinyan alyansın 11-13 Brüssel sammitində iştirak edən yeganə KTMT ölkəsinin başçısı idi. Kifayət qədər böyük ehtimalla söyləmək olar ki, yeni erməni liderinin hərəkətləri məhz bu məntiq üzərində qurulub - banal şantaj üzərində. Əks halda, Brüssel səfərini necə anlayaq?"

Daha sonra Paşinyan hökumətinin müstəsna olaraq rusofoblardan qurulduğuna diqqət yönəldilir və "Qərb liderləri ilə çoxsaylı şəkillər çəkdirən" erməni baş nazirin Avropa səfərindən əliboş döndüyü qeyd edilir.

**Məqalədə Paşinyanın Azərbaycanla bağlı mövqeyi də sərt tənqid olunur, Qarabağ məsələsində ölkəmizin ərazi bütövlüyünün dünya tərəfindən tanındığı vurğulanır:** "İnsaf naminə qeyd edək ki, hər halda, Brüssel səfərində bəzi diplomatik elementlər olub. Məsələn, Nikol Pşainyan ''Euronews'' telekanalına müsahibə verib və NATO-ya məsləhət görüb ki, alyans Azərbaycana "güclü mesaj" versin ki, əgər Bakı Dağlıq Qarabağı qaytarmaq istəsə, bunu dünya demokratiyasına təhlükə kimi qiymətləndirəcək. Təbii ki, belə mövqe Şimali Atlantika tərəfdaşlarında ehtiyatlı təəccüb doğurub, nədən ki, Qərbdə dəfələrlə Azərbaycanın ərazi bütövlüyünün tanınması və bu məsələ ilə bağlı şübhəli avantüralarda iştirak etməmək istəyi barədə bəyanatlar veriblər".

**Sayt sonda Paşinyanın Avropadan "demokratiya" adına maliyyə qoparmaq səylərinin də boşa çıxdığına diqqət yönəldir:** "Paşinyan pul istəməyə başlayan kimi onun "diplomatiyası" zəiflədi. Təbii ki, pulu o, "demokratikləşmə" üçün istəyirdi. Onun böyük zəhmətini cəmi 10 milyon avro həcmində qiymətləndirdilər. Bu pula isə təbii ki, çox da şellənə bilmərsən. Hələ harasıdır, Avropa Birliyinin Ermənistandakı səfiri Pyotr Svitalski ərinmədən dəqiqləşdirdi ki, AB onsuz da Ermənistanın əsas sponsorudur, bu ölkəyə dəstək proqramı isə hələ əvvəlki rejim dönəmində qəbul olunub. Bundan əlavə, diplomatın nəzərincə, Paşinyanın dəlili ona elə də aydın deyil, axı Ermənistanın AB-yə münasibətdə siyasətində dəyişiklik baş ver vermir. "Ermənistanın dəyişməyən AB siyasəti AB-nin Ermənistan siyasətinin dəyişməsinəmi gətirməlidir?", - deyə Svitalski təəccübünü ifadə edib. Bu isə o deməkdir ki, İrəvan üçün əlavə pul olmayacaq - nə qədər kədərli də olsa. Ona görə də yaranmış durumda arıqlayan erməni büdcəsini doldurmaq probleminin həllinin bir neçə mümkün variantı ola bilər: 1. Ölkəni NATO bazası kimi satışa çıxarmağa cəhd eləmək; 2. Rusiyanı Qərblə əlaqələrin gücləndiriləcəyi ilə bağlı şantaj eləməklə Moskvadan pul qoparmaq və 3. Emənistan iqtisadiyyatını gücləndirməyə cəhd eləmək. Maraqlıdır, görəsən Paşinyan hansı yolu seçəcək?"

*****

Bu da Paşinyan üçün kritik 3 yol - 3 seçim. Onların ikisi faktiki, Moskvaya, biri isə Bakıya aparır. Çünki ikisində Rusiya amili ilə hesablaşmaq məsələsi var, üçüncü (Bakı) variantında isə Ermənistan iqtisadiyyatı Qarabağ münaqişəsi həll olunmadan, blokada rejimi götürülmədən inkişaf edə bilməz.

Sonda əlavə edək ki, gələn həftə - iyulun 26-da Putin Nikol Paşinyanı ikinci dəfə "xalça üzərinə" çağıracaq. Bu dəfə Sankt-Peterburqda. Görüş Paşinyanın seçimini yüngülləşdirəcəkmi?

Bir azca gözləyək.

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

**Xəbər verildiyi kimi, iyulun 15-də səhər saatlarında Ermənistanın kəşfiyyat-diversiya qrupu Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində qoşunların təmas xəttini keçməyə cəhd göstərib. Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumata görə, düşmənin təxribat cəhdinin qarşısı alınıb və itkilər verərək geri çəkilməyə məcbur edilən qrupun bir üzvü əsir götürülüb. Əsir götürülən şəxs 1984-cü il təvəllüdlü Karen Kazaryandır.**

# Azərbaycanın ələ keçirdiyi erməni diversantla bağlı mühüm gəlişmə

## Onun ruhi xəstə olmadığını Ermənistanın müdafiə naziri də təsdiqlədi





Ermənistanın müdafiə naziri David Tonoyan hadisədən dərhal sonra Karen Kazaryanın geri qaytarılmasının təşkili üçün Beynəlxalq Qırmızı Xaç Komitəsinin İrəvan ofisinə müraciət edib. Ermənistan hökuməti Karen Kazaryanın hərbçi diversant olmadığını, ruhi xəstə olduğunu iddia edir. İddialarını isə "Kazaryanın davranışlarına diqqət edən onun ruhi xəstə olduğu qənaətinə gələr" kimi fikirlərlə əsaslandırmağa çalışırlar.

Kazaryanın diversant kimi Azərbaycan sərhədini keçməyə cəhd etdiyi vaxt saxlandığı isə faktdır. Onun ağıldan kəm olmadığını, peşəkar hərbçi olduğunu onun əldə edilən fotoları da sübuta yetirib. Onun xüsusi hərbi geyimdə, üzərində silah olan fotoları əldə edilib və sosial şəbəkədə yayılıb. Bu, artıq ermənilərin "Karen hərbçi deyil, xəstədir" həşirini puç etmiş fakt hesab edilir.

**İstefada olan polkovnik-leytenant, hərbi ekspert Üzeyir Cəfərov bu barədə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, xüsusi hərbi, psixoloji təlim keçmiş hərbçilərin əməliyyatlar zamanı ələ keçirilərkən özünü ruhi xəstə kimi göstərməsi, xəstə təqlidi etməyə çalışması halları ola bilir, lakin bu, o demək deyil ki, həmin şəxs həqiqətən də xəstədir:** "Karen Kazaryanın ruhi xəstə olmadığı faktdır. Ermənistanın təkzibi bu faktı dəyişmir. Azərbaycan tərəfi dəfələrlə bəyan edib və bunu da sübut edib ki, biz qarşı tərəfin mülki şəxsləri ilə heç bir mübarizə aparmamışıq və aparmırıq. O ki qaldı ermənilərin kəşfiyyat-diversiya əməliyyatlarında iştirak edən, bir çox hallarda əsgərlərimiz tərəfindən aşkarlanan, zərərsizləşdirilən, ələ keçirilən istənilən şəxslərə, bu cür hallarda dərhal Ermənistan rəsmiləri tərəfindən həmin diversantlar "xəstə", "mülki adam" kimi təqdim olunur.

Amma ermənilər çox arsız və həyasız olduqlarına görə etdikləri axmaq addımlara da diqqət etmirlər. Axırıncı Karen Kazaryan hadisəsində də ermənilər eyni taktikanı seçiblər, lakin başqa bir addımla özlərinin yalanlarını ifşa etmiş olublar. Belə ki, Ermənistanın müdafiə naziri David Tonoyan Karen Kazaryanla bağlı Beynəlxalq Qızıl Xaç Komitəsinə müraciət ünvanlayıb. Onda sual olunur, əgər Karen Kazaryan mülki və ruhi xəstədirsə, nədən onunla bağlı müraciəti Ermənistanın müdafiə naziri edir? Məhz müdafiə nazirinin müraciət etməsi faktı da Karenin hərbçi diversant olduğunu bir daha təsdiqləyən faktlardandır".

Ü.Cəfərov qeyd etdi ki, ermənilər öz əsgərini xilas etmək, vəziyyətdən çıxmaq üçün hətta ATƏT-in ermənipərəst səfiri Anjey Kaspşikin köməyindən də istifadə etməyə cəhd etdilər. Amma ermənilər ortalıqda konkret sübut və faktlar ola-ola da yenə inadkarlıq edirlər ki, guya bu adam hərbçi deyil. Kazaryanın sosial şəbəkələr vasitəsilə yayılmış əlində silah fotoşəkli də onun diversant olmasının tam sübut edir.

Onu da qeyd edək ki, artıq Azərbaycanın əlində ikinci erməni diversant var. 2014-cü il dekabrın 26-da erməni diversiya qrupunun üzvü Arsen Baqdasaryan qoşunların təmas xəttini keçib təxribata cəhd edərkən Azərbaycan ordusu tərəfindən tutulub. Məhkəmənin hökmü ilə o, 15 il müddətinə azadlıqdan məhrum edilib. O, Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyanın əmri ilə Azərbaycana qarşı cinayət törətdiyini etiraf edib.

**Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri Əhməd Şahidov artıq ikinci erməni diversantın əsir düşməsinin Ermənistanı çətin duruma saldığını bildirdi:** "Artıq hesablar bərabərdir. Bu gün azərbaycanlı mülki girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevin iki erməni hərbi kəşfiyyatçısı Arsen Baqdasaryan və Karen Kazaryanla dəyişdirilməsi barədə danışıqlara başlamaq olar. Düşünürəm ki, bu məsələdə ilk növbədə Ermənistan tərəfi maraqlı olmalıdır. Çünki Dilqəm və Şahbaz yaşlı mülki insanlardır və öz doğma rayonlarını ziyarət ediblər və bu zaman qanunsuz olaraq saxlanılıblar. Arsen və Karen isə gənc və peşəkar hərbi kəşfiyyatçılardır və Azərbaycan ərazisinə qanunsuz daxil olaraq təxribat törətməyə çalışıblar. Azərbaycan tərəfinin hələ bir neçə ay bundan əvvəl əsirlərin dəyişdirilməsi ilə bağlı çağırışı bu gün də aktualdır. Düşünürəm ki, Ermənistanın yeni hökuməti bu məsələdə daha praqmatik düşünəcək və əsirlərin dəyişdirilməsinə adekvat cavab verəcəklər. Yaxın vaxtlarda bu məsələnin öz həllini tapacağına inanıram".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Rus qoşunları Gümrüdən çıxsa - ermənilərin növbəti hay-küyü nəyə hesablanıb?

## Natiq Miri: "Ermənistan öz təhlükəsizliyini təmin edə bilməyəcək dərəcədə zəif, aciz bir ölkədir"

**Ermənistanda əhali qrupları Gümrüdəki 102-ci hərbi bazanın ölkədən çıxarılması tələbləri ilə yenidən çıxış etməyə başlayıb. Belə ki, iyunun 17-də Gümrüdə dislokasiya olunmuş Rusiyanın 102-ci hərbi bazasının hərbçiləri texnika və canlı qüvvə ilə Artik bölgəsinin Panik kəndinə daxil olaraq, orada atəş açıb, qumbara atıb və s. hərbi hazırlıq əməliyyatları keçirib.**



Məlumatlara görə, kəndin sakinləri hərbi kolonun ətrafına yığışaraq, hərbi komandanlığa suallar veriblər ki, rus əsgərləri azaraq, kəndin ərazisinə daxil olublar, yoxsa bu təxribatdır və s. Lakin komandir heç bir suala cavab verməyərək, hərbi hazırlıq əməliyyatının davam etdirilməsi əmrini verib. Bundan sonra gərginlik daha da artıb və artıq ermənilər rus hərbi bazasının çıxarılması tələblərini irəli sürürlər.

Erməni mediasının yazdığına görə, iyunun 17-də baş vermiş hadisə Rusiyanın Ermənistana "səni işğal edərəm" mesajıdır. Nəticə isə budur ki, Ermənistanda son vaxtlar anti-Rusiya meylləri artmaqdadır və bu ölkə rusların forpostu rolunu oynamaqla yanaşı, həm də vassalıdır. Uzun illər Rusiyanın hərbi yardımları ilə zor-bəla ilə ayaqda qalan Ermənistan indi daha çətin vəziyyətə düşüb. Gümrüdə və digər bölgələrdə Ermənistandakı rus hərbi bazasının çıxarılması tələbləri irəli sürülməyə başlayıb.

Xatırladaq ki, son illərdə bu cür çıxışlar bir neçə dəfə müşahidə olunub. 2016-cı il oktyabrın 13-də Gümrüdə yerləşən 102 saylı hərbi bazada müqavilə əsasında xidmət göstərən 1992-ci il təvəllüdlü R.Aleksandr Gümrü şəhər sakini Anahit H.-a cinsi təcavüz etmək istəyib. Bu da sonda böyük insidentə səbəb olmuşdu. O zaman da yerli əhali hərbi bazanın çıxarılmasını tələb edirdi. Bundan öncə isə Gümrüdə rus hərbçilərinə qarşı narazılıq rus hərçi Permyakovun bir erməni ailəsinin bütün üzvlərini qətlə yetirməsindən sonra başlanmışdı.

Ermənilərin yenidən eyni tələblə çıxış etməsi Rusiyanın 102-ci hərbi bazasının Ermənistandan çıxarılmasının mümkün olub-olmadığı, çıxarılacağı halda nələrin baş verə biləcəyi məsələsini gündəmə gətirir.

**Politoloq Natiq Miri "Yeni Müsavat"a bildirdi ki, Ermənistan orbitində Rusiyanın olduğu təhlükəsizlik sisteminə bağlıdır:** "Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür və burada həlledici dövlət Rusiyadır. Bu ölkənin hətta sərhədlərinin də qorunmasında Rusiya sərhəd qoşunları iştirak edir. İşğalçı ölkənin iqtisadiyyatının böyük hissəsi Rusiyadan asılıdır, sənaye müəssisələrinin əksəriyyəti borca görə Rusiyanın nəzarətinə keçib. Bir sözlə, Ermənistan heç bir məsələdə öz təhlükəsizliyini təmin edə biləcək gücdə, imkanda deyil. Ona görə də ermənilər istəsələr belə, Rusiyanın 102 saylı hərbi bazasını ölkələrindən çıxara bilməzlər. Ermənilərin bəziləri, deyəsən, fərqində deyillər ki, həmin hərbi bazanın varlığı Ermənistanın dövlət təhlükəsizliyi maraqlarına uyğundur. Odur ki, ermənilər oradakı rus hərbçilərinin şıltaqlıqlarına dözmək məcburiyyətindədirlər. 102 saylı hərbi bazanın bağlanması və Ermənistandan çıxarılması indiki vəziyyətdə mümkün deyil. Nəzəri baxımdan hesab etsək ki, rus qoşunları Ermənistandan çıxarıldı, o zaman işğalçı ölkə ətrafında özünə düşmən etdiyi dövlətlərlə təkbaşına qarşı-qarşıya qalmış vəziyyətə düşər. Azərbaycan qarşısında tamamilə immunitetsiz bir Ermənistan qalar".

Ekspert vurğuladı ki, Ermənistan özünün təhlükəsizliyini təmin edə bilməyəcək dərəcədə zəif, aciz bir ölkədir. Belə bir vəziyyətdə rus qoşunlarının Ermənistandan çıxması bu ölkə üçün faciəvi vəziyyətə gətirə bilər.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Paşinyanın müharibə qorxusu: "İnanmıram ki, Putin..."

**"Hamı başa düşür ki, Rusiya superdövlət kimi regionda müharibənin başlamasına yol verməmək üçün imkanlara malikdir". Musavat.com virtualaz.org-a istinadən xəbər verir ki, bu sözləri Ermənistanın baş naziri Nikol Paşinyan mətbuat konfransında bildirib.**

"İnana bilmərəm ki, Ermənistanın dostu və strateji müttəfiqi Rusiya müharibənin başlamasına yol verməmək üçün öz rıçaqlarından istifadə etməsin. Hamı kimi mən də əminəm ki, Rusiya Azərbaycanın müharibəyə başlamasına yol verə bilməz" - o qeyd edib.

Azərbaycan prezidenti İlham Əliyevlə görüş barəsində danışan baş nazir buna hazır olduğunu bildirib: "Mən Azərbaycan prezidenti ilə danışıqlara hazıram. Bunun üçün material var".

O əlavə edib ki, etimad mühiti olmalıdır və bunsuz münaqişəni həll etmək mümkün deyil.



# Qarpızın qiyməti və nazirin işi...

**Dünya SAKİT**

**Aprel ayında - prezident seçkilərindən sonra hökumət kabinetində xeyli yeniliklər oldu. Üç nazirliyin, bir xidmətin, üç komitənin rəhbəri dəyişdi. Yeni təyinatlar arasında ən çox müzakirələr kənd təsərrüfatı naziri ilə bağlı oldu. Azərbaycanda "ASAN xidmət" kimi korrupsiyadan azad bir xidmət qurumunun fəaliyyətinə rəhbərlik edən İnam Kərimovun aqrar sahənin başına gətirilməsini təqdir edənlər çox oldu. Az bir qisim isə kənd təsərrüfatının spesifik sahə olmasını əsas gətirməklə gənc nazirin bu sahədə uğur qazanacağını sual altına aldı. Amma əksəriyyət yeni nazirin aqrar sektoru da ASAN-laşdıracağına inanır. Bu baxımdan, İ. Kərimovun üzərinə çox böyük məsuliyyət qoyulub: inamı doğrultmaq, cəmiyyətin gözləntilərini reallaşdırmaq çox çətin, çox da ağır işdir...**

Təyinatlardan düz üç ay keçir. Bu müddət ərzində vəzifəyə gələnlər bir sıra işlər görüblər. İlk növbədə kadr islahatından başlayıb, çoxlu sayda məmurları yenisi ilə əvəzləyiblər. Bu yenilənmə Kənd Təsərrüfatı Nazirliyindən də yan ötməyib. Amma açığını söyləmək lazımdır ki, əksərindən fərqli olaraq bu qurumda kadr dəyişikliyi sırf keçmiş nazirin adamlarını işdən kənarlaşdırmağa hədəflənmədi. Burada ilk öncə gənc və fəal kadrların iş başına gətirilməsi, daha sonra isə işində pozuntulara yol verən kadrların əvəzlənməsi prosesi gedib, indi də davam edir.

Hamı bilir ki, aqrar sektor çox mürəkkəb, çox da geniş bir sahədir. Son illərdə prioritetə çevriləndən sonra bu sahəyə yönəldilən dövlət vəsaitlərinin həcmi milyard manatlarla ölçülür. Kənd təsərrüfatı həm də yaxşı və ya pisliyindən asılı olmayaraq, hansısa nəticələrin gec əldə oluna bildiyi sahədir. Yüz milyonların axdığı mürəkkəb bir sahədə kardinal dəyişikliyə 3 ay ərzində nail olmaq mümkünsüzdür. Bu baxımdan, kənd təsərrüfatında baş verən hər neqativə görə 3 ay əvvəl nazir təyin olunan şəxsin üzərinə yürümək ən yaxşı halda məntiqsizlik, ən pis halda isə qərəzlilikdir.

Bu il qarpız az əkilib - pambığa görə. Buna görə də qiymət bahalaşıb. Bəziləri İ.Kərimovu ittiham edir, "qucağına quzu almaqdansa, qarpız al" deyə, hətta zarafata da salırlar. Halbuki bu adam nazir təyin olunanda pambıq səpini yekunlaşırdı artıq: nə əkilən sahənin ölçüsünü, nə də yerini müəyyən etməyib.

Bu günlərdə ölkədə taxıl biçini başa çatmaq üzrədir. Bütün ölkəboyu taxıl sahələrində kombayn problemi yaşandı. Biçin gecikdiyinə görə son yağışlar xeyli məhsulu zay elədi. Və hamı yenə də yeni naziri suçlayır. Əlbəttə, aqrar sektorda yaranan problemlərə görə bu sahədə münasibətləri tənzimləyən əsas dövlət qurumundan narazılığın olması təbiidir. Təbii olmayan odur ki, biriləri yeni naziri hədəf seçərək danışır.

"Aqrolizinq" illər boyudur korrupsiya məskəninə çevrilib, aqrotexnikanın alınmasına ayrılan pullar yüz cür fırıldaqla mənimsənilib. Gətirilən texnikaların çoxu keyfiyyətsizliyinə görə tezliklə sıradan çıxıb. Aydın məsələdir ki, bu vəziyyəti 3 aya düzəldib, kənd təsərrüfatını zəruri texnika ilə təmin etmək mümkünsüzdür. Sözün həqiqi mənasında, xaraba qoyulmuş bir sahədə 90 günə cənnət qurmaq, yumşaq desək, xam xəyaldır.

Bunları yazmaqla, İ.Kərimovun bütün problemlərdən kənarda saxlanmasını təklif etmirəm, etməm mümkün də deyil. Lakin onun rəhbərlik etdiyi sahənin spesifikliyini nəzərə alaraq, heç olmasa 1 il vaxt verilməsinin gərəkdiyini düşünürəm. Ortada ASAN təcrübəsi var - bir məmurun fəaliyyət qabiliyyətini qiymətləndirmək üçün yetər də, artar da. Bu qabiliyyətin kənd təsərrüfatında özünü təsdiq edib-etməyəcəyini qiymətləndirmək üçün adama vaxt verilməlidir. Gəlin İ.Kərimovun işini real nəticələrin əldə oluna biləcəyi vaxtda qiymətləndirək. Yerli-yersiz tənqidlərlə ruhdan salıb, iş həvəsini öldürmək nə bizə lazımdır, nə də aqrar sektorumuza...

Sonda bir məsələni deyim ki, dünyada yeni vəzifəyə gələn-gətirilən şəxslərin işini dəyərləndirərkən ən azı 100 günlük dövr götürülür. Biz isə səbirsizliyimizi burada da göstərərək, 90 günün hesabını soruruq. Bir qədər səbirli olmağa dəyər, nə deyirsiniz?



# "6 ildəki təhsil haqqını geri qazanmaq üçün 10 il işləmək lazımdır"

## Kamran Əsədov: "Son 7 ildə 5 mindən çox tələbə təhsil haqqını ödəyə bilmədiyi üçün təhsilini yarımçıq qoyub"

**Ötən günlərdə 2018-2019-cu tədris ili üçün ali məktəblərin plan yerləri açıqlandı. Kəskin artım daha çox bədən tərbiyəsi ixtisası üzrə, ciddi azalma isə tibb ixtisası üzrə olub.**

Belə ki, 2017- ci ildə IV ixtisas qrupunda Azərbaycan və rus bölməsinə tibb üzrə (Bakı və Naxçıvan daxil olmaqla) 1075 yer ayrılmışdı. Bu il, 2018-ci ildə isə IV ixtisas qrupunda Azərbaycan və rus bölməsinə (Bakı və Naxçıvan daxil olmaqla) 785 plan yeri ayrılıb. Bu il keçən illə müqayisədə tibb ixtisası üzrə IV qrupda yerlərin sayı 290 yer azalıb.

İdman ixtisası üzrə isə 2017-ci illə müqayisədə 2018-ci ildə plan yerləri ciddi sayda artıb. Keçən il Azərbaycan və rus bölməsinə bədən tərbiyəsi üzrə 1155 plan yeri ayrılmışdı. Bu il, 2018-ci ildə isə bədən tərbiyəsi və idman ixtisası üzrə ayrılan yerlərin sayı artaraq 1505 plan yeri olub. Yəni 2017-ci illə müqayisədə 2018-ci ildə bədən tərbiyəsi üzrə plan yerləri 350 yer artıb.

Tibb ixtisası üzrə plan yerlərinin azaldılması təhsil haqlarına da təsir göstərib. IV ixtisas qrupunda bəzi fakültələr üzrə təhsil haqlarının bahalaşıb. Müalicə işi ixtisası üzrə illik təhsil haqqı 1500 manat bahalaşaraq 4500 manat olub (6 ildə 27 min manat). Stomatologiya, tibbi profilaktika və əczaçılıq ixtisasları üzrə illik təhsil haqqı isə 1000 manat bahalaşaraq, 4000 manat olub (6 ildə 24 min manat).

**Təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, tələbələrin sayının azalması qrupların və dərs saatlarının miqdarına təsir göstərməyib. Buna görə də universitet rəhbərliyi haqlı olaraq təhsil haqlarının artırılması təklifini verib:** "Ali təhsil müəssisələrində kadr hazırlığı həyata keçirildiyi ixtisaslar üzrə təhsil haqları ona sərf olunan xərclər smetası əsasında müəyyən olunur. Bir il ərzində tədris olunan fənlərə görə müəllimlərə ödəniləcək əmək haqqı, sərf olunacaq bütün resurslar hesablanaraq təhsil haqqı müəyyən olunur. Tələbənin təhsil müəssisələrinə ödənilməsi nəzərdə tutulan təhsil haqqına hətta universitetin saxlanması üçün nəzərdə tutulan, layihələrin həyata keçirilməsi üçün zəruri olan xərclər də daxildir. Yeni ixtisaslar üzrə müəyyən edilmiş təhsil haqlarında müxtəlif təhsil haqları ixtisaslar üzrə plan yerlərinin sayı da təsir göstərir. Xarici ölkələrdə fəaliyyət göstərən universitetlərdə isə bu, adambaşına düşən xərclər smetası əsasında müəyyən edilir. Məhz buna görə də Azərbaycan universitetlərinin təhsil haqqı dünyanın 1000 universitetindən bahadır. Keyfiyyət isə onlardan dəfələrlə aşağıdır. Belə ki, müəyyən ixtisaslar var ki, plan yeri çoxdur və müəyyən edilmiş xərclər smetası üzrə ortaya çıxan məbləğ daha çox tələbə arasında bölüşdürülür ki, bu zaman ortaya az məbləğ çıxır. Amma xalq çalğı alətləri, solo oxuma, dirijorluq və s. kimi ixtisaslar var ki, onların plan yeri az olduğu üçün bütün xərclər az plan yeri arasında bölüşdürülür və nəticədə bu kimi ixtisaslar üzrə yüksək təhsil haqları formalaşır. Bu əlbəttə ki, təklif olunan qiymətlərdir. Ali məktəblərin plan yerləri tam şəkildə dolmur. Müəyyən sayda plan yeri boş qalır ki, bu zaman öncədən planlaşdırılmış maliyyə hesabatlarında kəsr yaranır. Ona görə də ali təhsil müəssisələri də təhlükəsizlik marjiyasını müəyyən etmək üçün təhsil haqlarını daha da qaldırırlar".



**Təhsil eksperti təəssüflə qeyd edir ki, son 7 ildə 5 mindən çox tələbə təhsil haqqını ödəyə bilmədiyi üçün təhsilini yarımçıq qoyub:** "Bu təhsil haqları kifayət qədər böyük rəqəmdir. Nəzərə alsaq ki, Azərbaycan gəncləri daha az təhsil haqqı ödəməklə qonşu ölkələrdə daha yüksək təhsil ala bilərlər, bu zaman biz böyük sayda insanın xaricə üz tutmasına şərait yaratmış oluruq. Təhsil haqları müəyyən olunarkən istər Nazirlər Kabineti, istərsə də universitetlər təkcə sərf olunan xərcləri düşünməməlidirlər. Onlar həmin o qədər yüksək məbləğdə vəsait ödəyib təhsil alan tələbələrin sonradan əmək bazarında iş tapması, alacağı əmək haqqını da nəzərə almalıdırlar. Təəssüf ki, tələbələrin təhsil aldıqları müddətdə ödədikləri təhsil haqlarını geri qazanmaq üçün indiki əmək haqqı məbləği ilə 10 ilə qədər vaxt lazımdır. Hazırda Azərbaycanda dövlət universitetlərində ən yüksək təhsil haqqı 6500 manat, ən aşağı təhsil haqqı isə 1000 manatdır. Qardaş Türkiyənin dövlət universitetlərində minimum təhsil haqqı 100, maksimum təhsil haqqı 3000 manatdır. Rusiyada bu rəqəm 400-3500 manat arasında dəyişir. Ukraynada 500-2500 manat məbləğində təhsil haqları dəyişir. Bu, dövlət universitetində olan təhsil haqlarıdır. Özəl universitetlərdə isə rəqəmlər fərqlidir".

Qeyd edək ki, ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələri təhsil haqları ilə bağlı Nazirlər Kabinetinə müraciət edirlər. Əgər universitetlərin təhsil haqqı ilə bağlı müraciətləri əsaslıdırsa, Nazirlər Kabineti təsdiq edib Dövlət İmtahan Mərkəzinə göndərir.

**❑ Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi





# Qarabağ üçün kritik aylar - Moskva-İrəvan müttəfiqliyi çat versə...

## Danışıq xətrinə danışıq dövrü bitir; **rusiyalı politoloq Ermənistanı hədələdi:** "İrəvan bu addımı atsa..."

**Uzun fasilədən sonra nəhayət, Brüsseldə Azərbaycan və Ermənistan arasında kifayət qədər yüksək səviyyədə sülh danışıqları baş tutdu. Ötən həftə iki ölkənin XİN başçıları - Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşəbbüsü ilə bir araya gəldilər. Lakin budəfəki, 4 saatlıq görüşdə də heç bir ciddi nəticə qeydə alınmadı.**

Əslində bu, gözlənilmirdi də. Çünki işğalçı ölkədə inqilab dalğasında hakimiyyətə gələn yeni qüvvələr hazırda Qarabağ hayında deyillər. Daha doğrusu, Paşinyan iqtidarı Dağlıq Qarabağ konflikti kimi "xətalı" problemlə nə edəcəyini bilmir, yalnız sərsəm bəyanatlar verməklə məşğuldur. Xarici siyasi şərhçilər də vəziyyətdəki bu məqamlara diqqət çəkirlər.

*****

"Ermənistanın Dağlıq Qarabağla bağlı məhsuldar danışıqlar aparmaq istəyi yoxdur". "Yeni Müsavat" xəbər verir ki, bu sözləri azernews-a açıqlamasında rusiyalı politoloq, beynəlxalq məsələlər üzrə ekspert Yevgeni Mixaylov bildirib.

Onun sözlərinə görə, sülh danışıqlarının intensivləşməsi üçün ilk vacib şərt münaqişə tərəflərinin özlərinin danışıqlara hazır olmasıdır. "İndiki halda Azərbaycandan fərqli olaraq, erməni tərəfində belə istəyi müşahidə eləmirəm", - deyə ekspert qeyd edib.

**Rusiyalı politoloqun fikrincə, konfliktin nizamlanması üzrə qarant-ölkələri də dəyişmək zamanı çatıb:** "Üçüncü ölkələrin qoşulması sülh əldə olunması üçün həmişə müsbət məqam sayılıb, ancaq Qarabağ məsələsində mənim fikrimcə, nizamlanma üzrə qarant-ölkələri, formatı dəyişmək lazımdır. Yəni ABŞ və Fransanı tamamilə faydasız ölkələr kimi kənarlaşdırmaq gərəkdir".

**Analitikə görə, regionda sülhün real qarantı ilk növbədə Rusiya, həmçinin Türkiyə və İrandır:** "Məhz bu dövlətlər Bakı və İrəvan arasında diplomatik konsensus tapılmasına kömək eləməlidir".

Rusiyalı politoloq həmçinin Ermənistanın indiki iqtidarının apardığı xarici siyasətdən dolayı narahatlıq ifadə edib. Onun qənaətincə, İrəvanın siyasəti Moskva ilə əsrlik əlaqələri pozmağa yönəlib ki, bu da özünü Dağlıq Qarabağ ixtilafının dinc nizamlanmasında və bütövlükdə regional təhlükəsizlikdə göstərə bilər.

"İrəvanın bütünlüklə Qərbə oriyentasiya götürəcəyi təqdirdə Moskva artıq təhlükəsizlik anlamında Ermənistanın maraqlarına zəmanət verə bilməyəcək. Əgər İrəvan üstəlik, Rusiya hərbi bazasının çıxmasında da təki eləsə, o zaman Moskva yəqin ki, kardinal siyasi qərarlar qəbul edəcək. Mən Cənubi Qafqazda siyasətin koordinatlarının bütünlüklə dəyişməsini nəzərdə tuturam. Bu, hər şeydən öncə Ermənistanın düşmən adlandırdığı ölkələrlə yaxınlaşma və onlarla hərbi-siyasi ittifaqların yaradılmasıdır", - deyə Mixaylov sonda Ermənistanın Qərblə ikili oyun oynayan hazırkı rəhbərliyini, faktiki, hədələyib.

*****

Rusiyalı politoloq "yaxınlaşma və yeni hərbi-siyasi ittifaqlar" deyərkən şübhəsiz ki, Azərbaycan və Türkiyəni nəzərdə tutur və bununla İrəvanı Qarabağ məsələsi ilə təhdid edir. Bunu əlbəttə ki, İrəvanda da yaxşı başa düşürlər. O üzdən hələ bir müddət də baş nazir Nikol Paşinyanın Moskvaya sədaqət bəyanatları verəcəyini söyləmək olar.



Lakin N.Paşinyan Rusiyanın adamı olmadığı, Moskvaya yad olduğu, Qərbin ssenarisi ilə hakimiyyət olimpinə yüksəldiyi üçün enində-sonunda Rusiya ilə Qərb arasında seçim eləmək zorunda qalacaq. Əks halda, öz xalqına verdiyi bütün vədlər boşuna gedəcək. Qarşıdakı aylar Ermənistan və İrəvan-Moskva münasibətləri üçün həm də bu kontekstdə kritik sayılır. Deməli, Dağlıq Qarabağ məsələsi ətrafında da mühüm gəlişmələr gözləməyə dəyər.

Bəs siyasi analitiklər bu istiqamətdə nə düşünürlər? Dağlıq Qarabağ probleminin həll perspektivi bu kontekstdə necə görünür, Paşinyanın seçimi nə olacaq?

**"Ermənistanın yeni baş naziri Nikol Paşinyanın Brüsselə səfərindən sonra aydın oldu ki, Avropa Birliyi və ABŞ Ermənistana maliyyə yardımını artırmaq niyyətində deyillər. Əsas səbəb də ondan ibarətdir ki, Ermənistanda hakimiyyət dəyişikliyinin baş verməsi ölkənin xarici siyasətində ciddi dəyişikliyə gətirib çıxartmadı".**

**"Yeni Müsavat" teleqraf.com-a istinadla xəbər verir ki, bunu politoloq Azər Qasımlı deyib. Politoloq qeyd edib ki, Ermənistanın yeni rəhbərliyi hazırda Rusiyanın təsirindən çıxmaq iqtidarında deyil:** "Özlərinin də dediyi kimi, baş verən inqilab geosiyasi hadisə kimi deyil, daxili hadisə kimi dəyərləndirilməlidir. Belə olan təqdirdə Qərb ölkələri də haqlı olaraq "Biz niyə Ermənistanın Avrasiya İttifaqında və KTMT-də qalmasını maliyyələşdirməliyik?" deyə soruşa bilərlər. Hakimiyyətə gəldiyi zaman Paşinyanın, "Dağlıq Qarabağ danışıqların iştirakçısı olmalıdır, olmasa biz danışıqlarda iştirak etməyəcəyik" səsləndirdiyi bəyanatını tənqid etmişdim. Olduqca populist bəyanat idi. Mövqeyim də ondan ibarət idi ki, Minsk Qrupu çərçivəsində aparılan danışıqlardan çıxan tərəf məğlub olacaq. Əgər Paşinyan Ermənistanda avtoritarizmə və korrupsiyaya qalib gəlmək istəyirsə, Rusiyanın təsir orbitindən çıxmalıdır. Bunun üçün də Qarabağ problemini həll etməlidir. Problemin həlli yolu da Azərbaycanla razılaşmadan keçir. Bir sözlə, Ermənistanın Qarabağla birgə Qərbə inteqrasiyası mümkün deyil".

**Azər Qasımlının sözlərinə görə, belə olmur.** "Bir neçə gün əvvəl Gümrüdəki Rusiya hərbi bazasında baş verən növbəti insident bir daha göstərdi ki, Ermənistanın müstəqilliyi hələ də təhtid altındadır. Ola bilsin ki, Paşinyan Ermənistanda baş verən inqilabi dəyişiklikdən sonra ABŞ və Avropa Birliyinin Gürcüstana və Ukraynaya verdiyi dəstəyi Ermənistana da əsirgəməyəcək. Lakin Qərb ölkələri korrupsiyaya qarşı mübarizənin nəticələrini, erməni hakimiyyətinin xarici siyasət məsələlərində müstəqil qərar vermə imkanlarını görməlidirlər. Bu da dediyim kimi, Azərbaycanla danışıqlardan asılı olacaq", - deyə o əlavə edib.

Göründüyü kimi, Paşinyan istəsə də, istəməsə də, xarici siyasətin daxili siyasətin davamı olduğunu qəbul eləməli olacaq...



## İrəvan Minski Bakıya silah satmağa görə bağışlaya bilmir

**Belarusun Azərbaycana "Polonez" raket sistemləri satması Minsk - İrəvan münasibətlərini gərginləşdirib (teleqraf.com). Bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib.**

Baş nazir Belarus və Azərbaycan arasında inkişaf edən hərbi əməkdaşlıq barədə narahatlığını da dilə gətirib: "Belarus Ermənistanın müttəfiqidir, amma Azərbaycana silah satır. Əlbəttə, bu, bizi narahat edir. Belarusun bu addımı münasibətlərə ağır zərbə vurub, artıq münasibətlərdə problemlər ortaya çıxıb. Bu barədə prezident Aleksandr Lukaşenkoya da demişəm ki, Azərbaycana silah satmaq münasibətləri zədələyir".

Yeni Müsavat
N 156 (7045) 21 iyul 2018



Elxan Şahinoğlu

# Rusiya daha Ukraynada öz adamını hakimiyyətə gətirə bilməyəcək

## Tanınmış politoloq: "Rusiya Krımı və Donbasın bir hissəsini ələ keçirməklə öz şanslarını azaltdı"

**Rusiyanın ABŞ-da keçirilən son prezident seçkilərinə müdaxilə etdiyi artıq Amerikada təsdiq olunub. Şimal qonşumuzun qüdrətli və əlinin hətta okeanın o tayındakı supergücün daxilində keçirilən seçkilərə təsir etmək qədər uzun olduğu bir daha ortaya çıxdı. Siyasi ekspertlər hesab edir ki, dünyaya hökm edən dövlətdə seçkilərə təsir etmək imkanına sahib olan Rusiyanın qonşuluğundakı Amerikadan dəfələrlə kiçik dövlətlərdə keçirilən seçkilərə hansı səviyyədə təsir edə bildiyini xüsusi izah etməyə ehtiyac belə yoxdur.**

Nəzərə alsaq ki, bu il Ukraynada prezident seçkiləri olacaq, Rusiyanın bu seçkilərə təsir etməsi məsələsi aktuallaşır. Ukrayna hakimiyyətinə bağlı media orqanları və şəxslər Moskvanın bu seçkilərə müdaxilə edəcəyini və öz adamını hakimiyyətə gətirməyə çalışacağını iddia edirlər.

Beləliklə, Rusiyanın bu il Ukraynada keçiriləcək prezident seçkilərinə müdaxilə etməsi və nəticələrə təsiri mümkünmü sualı aktuallaşır. Moskva öz adamını Ukraynada hakimiyyətə gətirə bilərmi?

**Politoloq Elxan Şahinoğlu** qeyd etdi ki, Rusiya Ukraynada növbəti prezidentin rusiyapərəst, ant-Qərb mövqeli şəxs olmasını çox istəyər: "Əvvəlki illərdə də bu vəzifəni yerinə yetirmək çətin olsa da, Moskva istəyinə nail olurdu. Məsələn, Moskva Viktor Yuşşenkonun ardından Viktor Yanukoviçin prezident seçilməsinə nail oldu, o da nazir postlarına ciblərində Rusiya pasportu daşıyan şəxsləri yerləşdirdi. Ölkədə qarışıqlıq yaranan kimi də həmin adamlar Rusiyaya qaçdılar. Bəlli oldu ki, Ukrayna ordusunu dağıdanlar da onlar olub. Ancaq indi Ukraynada prezident postuna rusiyapərəst siyasətçinin oturdulması çətindir. Bunun bir neçə səbəbi var. Birincisi, Krım və Donbasın əsas hissəsi Ukraynanın nəzarətindən kənarda qalıb. Bu bölgələrin əhalisi Ukraynada seçkilərdə artıq iştirak etmirlər. Məhz bu bölgələrin əhalisi Ukraynadakı seçkilərdə rusiyapərəst siyasətçilərə səs verirdilər və nəticələrə təsir edirdilər. İndi isə Ukraynada rusiyapərəst siyasətçi artıq böyük elektorat ordusunu itirib, bu, milyonlarla səs demək idi. Torpaqlar işğal olunsa da, Ukraynada millətçi siyasətçinin seçkini qazanmaq şansı artıb. İkincisi, Rusiya Krımı ilhaq etməklə, Donbas separatçılarına dəstək verməklə vaxtilə Ukraynada ona loyal münasibət bəsləyənlərin bir qisminin də dəstəyini itirib. Bu, həm də o deməkdir ki, Rusiya bütövlükdə Ukraynanı itirib, əvvəlki isti münasibətlərdən əsər-əlamət qalmayıb və yaxın illərdə bu belə də davam edəcək. Ukraynada özünə hörmət edən heç bir siyasətçi Krımın ilhaqını və Donbasın işğalını həzm edə bilməz".

**Politoloq onu da qeyd etdi ki, buna baxmayaraq, Ukraynada Rusiyaya meylli elektorat hələ də var:** "Məsələn, Odessa, Xarkov, Nikolayev və digər şəhərlərin sakinləri bütün baş verənlərə rəğmən, Rusiya ilə yaxınlığın tərəfdarıdırlar. Bunu açıq dilə gətirməkdən ehtiyat edirlər, ancaq düşüncələrində Rusiya dərin kök salıb. Donbasın Azov sahilində Mariupol şəhəri var. Bu şəhər strateji əhəmiyyət kəsb edir. Donbas separatçılarının və Moskvanın ən böyük arzusu Donetsk və Luqanskdan sonra Mariupolu ələ keçirmək idi. Alınmadı. Ukraynada yeni qurulan ordu birlikləri Mariupolun işğalına imkan vermədilər. Ancaq bu şəhərin əhalisinin bir hissəsi də Rusiyaya meyllidir, evlərində kabel vasitəsilə Rusiyanın televiziya kanallarını izləyirlər. Rusiya Krımı və Donbasın bir hissəsini ələ keçirmək əslində Ukraynada rusiyapərəst siyasətçinin hakimiyyətə gəlmək şanslarını azaltdı. Ancaq hər halda, Ukraynada olan-qalan elektoratı da hərəkətə gətirmək planlarından əl çəkməyib".

Ekspert onu da dedi ki, Ukraynada keçiriləcək seçkilərdə Qərbin də marağının olduğu bəllidir və bu marağın da Rusiyanın istəklərinin reallaşmasının qarşısında əlavə baryer olacağı şübhəsizdir.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

**Suriyanın Hələb, Hama və İdlib vilayətləri yaxın zamanlarda Türkiyənin nəzarətinə veriləcək. Türkiyə bu bölgələrin yenidən təmir və bərpasını həyata keçirəcək, Türkiyədəki və Avropadakı qaçqınlar buraya dönəcək.**

# Hələb Türkiyənin nəzarətinə verilir - iddia...

## Xarabalığa çevrilmiş bölgələrin təmir ediləcəyi və qaçqınların bura yerləşdiriləcəyi planına Əsəd imkan verməməyə çalışacaq



Belə bir sensasion iddia ilə Türkiyənin "Yeni Şafak" qəzeti çıxış edib. Suriya Müxalif İnqilabçı Qüvvələr Koalisiyasının üzvü Fuad Alikoya istinadən yaydığı xəbərdə qeyd olunur ki, Yaxın Şərqin ən böyük sənaye şəhəri olan Hələb Türkiyənin nəzarətinə verildikdən sonra təmir və bərpa ediləcək, bundan sonra isə Türkiyədə, eləcə də Avropada yaşayan 3 milyondan artıq qaçqın geri qayıdaraq bu şəhər və ətrafında məskunlaşacaq.

F.Aliko deyib ki, hazırda bu yöndə Rusiya və Türkiyə arasında danışıqlar davam edir, ciddi məsafə qət edilib. Müxalifət təmsilçisi deyib ki, Avropadan və Türkiyədən qaçqınların geri qayıtması hökumət və şiə partizanları ilə danışıqlardan sonra başlayacaq. Hələbin şiələr yaşayan Fua və Kefarya qəsəbələri boşaldıqdan sonra (*sözügedən qəsəbələr dünən tamamən boşaldılıb, anlaşma əsasında 3 ildən çoxdur mühasirədə qalan qəsəbələrin mülki əhalisi və silahlı döyüşçülər Hələbə köçürülüb - K.R.*) Hələb, Hama və İdlibdən ibarət "sünni koridoru" qətiləşəcək. F.Aliko onu da deyib ki, bu plana əsasən Suriya faktiki olaraq 3 hissəyə bölünəcək. 2018-ci ilin ikinci yarısından etibarən Suriyanın şərqində ABŞ-PKK ittifaqı, orta ərazilərdə Türkiyə-ASO, cənub və qərb bölgəsində isə Rusiya-Suriya (rəsmi hökumət - K.R.) nüfuz bölgələri formalaşacaq.

**Sitat:** "Laziqiyyə, Tartus, Hums, Dəməşq, Deyr əz-Zor Suriya-Rusiya-İran ittifaqının nəzarəti altında olacaq. Fəratın şərqində Hasake, Raqqa, Deyr əz-Zor çöl ərazisi ABŞ-PKK ittifaqına veriləcək. Orta bölgədə isə sünni əhalinin çoxluqda yaşadığı Hama, İdlib və Hələb bölgələri Türkiyənin nəzarətində olacaq. Bu istiqamətdə dövlətlər arasında danışıqlar davam edir. Hazırda Hələb əl-İys, Raşidin, əl-Bab, Xan Asal istiqamətindən Türkiyə ordusu və ASO-nun mühasirəsi altındadır. Qarşıdakı dövrdə hərbi əməliyyatlardan daha çox diplomatiya və siyasət sahəsində addımlar atılacaq. Türkiyənin də daxil olduğu proses çoxşaxəli, regional və beynəlxalq oyunçuların daxil olduğu çərçivədə davam edir".

Suriyalı müxalifətçi etiraf edib ki, hazırda İdlibdə Cund əl-Aqsa, Təhrir əş-Şam kimi "nəzarətdə olmayan" qruplar var. Eyni zamanda bölgədə şiə silahlıları, həmçinin kürd ərazilərindəki PKK varlığı Türkiyə üçün problemdir, ancaq buna baxmayaraq o ümid edir ki, Hələbin Türkiyəyə verilməsi ilə yeni proses başlaya bilər.

Qeyd edək ki, "Yeni Şafak" adətən bu cür "sensasiyalı" məqalələrlə gündəmə gəlir. Xüsusən də Orta Şərq və Türkiyənin regional siyasəti ilə bağlı qəzetin fantastik iddiaları özündə əks etdirən yazıları zaman-zaman dərc olunub. Yuxarıda qeyd olunan iddianın isə məntiqi baxımdan, eləcə də hazırda Suriyadakı güc bölgüsü baxımından əsası yoxdur. Yəni indi bu iddianı şərtləndirəcək hərbi-siyasi vəziyyət yoxdur.

İlk növbədə ona görə ki, qeyd olunan plan Suriyanın faktiki olaraq məzhəb və etnik planda bölünməsini nəzərdə tutur. Yəni faktiki olaraq ölkə 3 yerə ayrılacaq: Ələvi (Nusayri) və şiələrin əlində olan cənub-qərb, sünnilərin nəzarətindəki şimal və kürdlərin nəzarətindəki şimal-qərb. Aydın məsələdir ki, bu cür siyasi bölgü 3-4 il əvvəl gündəmə gəlsə də, nə region dövlətləri, nə də dünya ölkələri bu bölgü ilə razılaşmadı. Çünki bu cür etnik və məzhəbi təməlli bölgü bütün Yaxın Şərqdə domino effekti verər, etnik və dini-məzhəbi münaqişələri alovlandıra bilərdi.

Digər tərəfdən, Suriyanın indi bu şəkildə bölünməsi nə Əsədin və onun hökumətinin, nə də Rusiya və İranın maraqlarına cavab vermir. Hətta Amerikanın və Avropanın bu cür bölgüyə, yəni ölkənin əsas yarısının Türkiyənin kontroluna keçməsinə razılıq verəcəyi inandırıcı deyil. Rusiya və İran isə Əsədin nəzarətində olan bölgələri müxaliflərə təhvil verməsinə razılıq verə bilməz. Çünki birincisi, bu bölgələr, o cümlədən xüsusən də Hələb Əsəd və müttəfiqləri üçün baha başa gəlib. 2015-2016-cı illərdə Hələb uğrunda ağır döyüşlər olub, demək olar ki, hər məhəllə uğrunda savaş baş verib. Suriya ordusu və müttəfiqlər Hələbdə ağır itkilər veriblər.

Digər tərəfdən, Hələb Yaxın Şərqin sənaye, əsas da tekstil mərkəzi hesab olunur. Müharibədən əvvəl Hələb və ətrafında 4 milyondan çox insan yaşayıb. 320-dən artıq zavod və fabrikin mövcud olduğu Hələbin məhsulları Rusiya da daxil olmaqla, regionun bir çox ölkələrinə satılıb. Üstəlik, strateji baxımdan Hələb Yaxın Şərqin əsas magistral yolların üzərində yerləşir. İordaniya, İraq, Türkiyə, Livan kimi ölkələri birləşdirən nəqliyyat xətləri bu şəhərdə kəsişir. Belə bir strateji əhəmiyyətli böyük məntəqəni Əsəd və müttəfiqlərinin təhvil verməsi inandırıcı görünmür.

Bəlkə də 4 il əvvəl bu barədə danışmaq daha məntiqli görünə bilərdi, çünki həmin vaxt Hələb Əsədin əlində deyildi. Ancaq indi Bəşər Əsəd faktiki olaraq Dəra da daxil olmaqla, cənub rayonlarını aza edib və indi qarşısında İdlib və Deyr əz-Zor kimi bölgələr qalır. Belə bir vaxtda, sahədə faktiki olaraq hərbi üstünlüyü əldə etmiş Bəşər Əsədin əlindəki məntəqələri müxaliflərinə təhvil verməsi mümkün deyil.

Bu səbəbdən də qəzetin və istinad etdiyi müxalif şəxsin iddiasını doğru qəbul etmək olmaz. Ancaq bu xəbərin ortaya çıxması bir mənada İdlib əməliyyatı ilə bağlı siqnal hesab oluna bilər. İdlibin taleyi indi Rusiya-Türkiyə anlaşmasından və sahədə müxaliflərin davranışından asılı olacaq. Müxalifət daxilində toqquşmaların güclənməsi Bəşər Əsədin İdlibə yönəlməsinə səbəb ola bilər. Ancaq Rusiya və Türkiyənin Suriyanın şimalının taleyi ilə bağlı müzakirələri realdır. Çünki ruslar hər nə qədər amerikalıların bölgədən çıxmasını istəsələr də, Türkiyə ilə anlaşmağa meyllidir. Təbii ki, bu həm də mövcud siyasi şərtlərdən asılı olacaq. Ancaq indilikdə suriyalı müxalifətçinin dediyi kimi, bölgənin taleyi ilə bağlı Ankara və Moskvanın hansısa razılaşma üzərində işləməsi gözlənilməndir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 156 (7045) 21 iyul 2018



# "Kişinin saç boyamasına, sırğa taxmasına pis baxmıram"

## Bəstəkar-müğənni **Murad Arif:** "Azərbaycanda cəmi 3-4 müğənninin əlaqələri, maddi durumu, dostları konsert verməyə imkan verir"

**"Oppalar" mahnısı ilə yayın "hit"inə imza atan bəstəkar-müğənni Murad Arif "Yeni Müsavat" qəzetinin suallarına cavab verib. Onunla şou-biznesin hazırkı durumundan, "Oppalar" mahnısına olan reaksiyalardan, vətəndaş mövqeyindən və ailə həyatından danışdıq.**

***- Yayın ikinci ayını yaşayırıq. Amma siz hələ də iş başındasınız. Deyə bilərik ki, bu, "Oppalar"ın uğurudur?***

- "Oppalar"dan oxuyan oğlan - Murad Arif özü istirahətə vaxt tapmır. Mahnı çıxandan həyat məni yaxşı mənada yorur. Ağır rejimim var, tələbatlı, lazımlı olmaq məni xoşbəxt edir.

***- Nə zamansa, tükənəcəyinizi düşünürsünüz?***

- Düşünürəm ki, nəfəs aldıqca istəklərim artır. Getdikcə daha da lazımlı oluram, yeni, böyük işlərə imza atıram. Tükənmək haqda heç düşünmürəm.

***- "Oppalar" çıxanda çoxları dedi ki, elə bil uşaq mahnısıdır, bu nə addır?***

- "Oppalar" böyüklərin də istifadə etdiyi kəlmədir. "Oppalar" həm uşaqların, həm böyüklərin mahnısıdır. Mahnını istənilən yerə yozmaq olar. Mən fərqli fikirlərə müdaxilə etmirəm. "İnstagram"da 200-ə yaxın video paylaşmışam ki, insanlar "Oppalar"ı ifa edir, dinləyir, rəqs edir, əylənir. Hər kəsə xitab edən mahnı ifa etdiyim üçün sevincliyəm.

Mahnının alt mənasına gəldikdə isə bütün mahnılarımda alt məna var. Onların bəzilərini cəmiyyət çözə bilib, bəzilərini isə hələ də heç kim anlamayıb. "Bu şəhər ikimizə dar" - burada söhbət hansı şəhərdən getdiyini demirəm, çünki bu mənim hekayəmdir.

***- Hansı şəhər sizə dar olub?***

- Bəzən dünya mənə dar olur, heç yerə sığışmıram. Bu bir sevgi anıdır. Bütün şəhər sizin üçün 1 nəfərdən ibarətdirsə, siz ayrılmısınızsa, şəhər sənə dar olur.

***- Ayrılıqlara tez öyrəşirsiniz?***

- Mən sevgidə heç vaxt ayrılmamışam, ilk və son sevgim həyat yoldaşımdır. Sevərək üzüyümü barmağımda daşıyıram. Ayrılıq nəğmələri qısa müddətli qığılcımlardan, məişət zəminində yaranan mübahisələrdən sonra yaranır. O zaman işin hər tərəfini düşünürsən, "Sənə ehtiyacım var", "Səninlə çox çətin mənə, sənsiz daha da çəkilməz" (Damlalar) yaranır.

Dostluqlarda, qardaşlıqlarda, yoldaşlıqlarda itirdiyim şəxslər olub. Deməzdim ki, zamanında asan idi, indi isə asandır. Çünki səadəti ailəmlə yaşayıram. Mənim üçün bütün bir komada toplaşan 6-7 insan bir yanadır. Ona görə dost dediyim naqislik etsə, mənə zərər verməyəcək. Çünki səadət dost-tanışda deyil, ailədədir.

***- Batil inanclarınız varmı?***

- Həyat enerjidən ibarətdir. Bizim baxışlarımızın, oturuşumuzun, sözümüzün enerjisi var. Hamısının gücünə inanıram. Qorunmağın tək yolu özünü pak saxlamaqdır. Mən meditasiya ilə zamanında maraqlanmışam, arıqlamaq kurslarına yazılmışdım. Orada deyirdilər ki, 1 qurtum da spirtli içki içmək olmaz. Deyirdim ki, 1 az içsəm, sonra idman etsəm, kalori gedəcək. Dedilər ki, anlamırsan, spirtli içki ruhunu zəhərləyəcək, düşüncənə zərbə vuracaq. Kökəlmək mədə məsələsi deyil, göz-nəfs məsələsidir. Alkoqolla nəfsin, şəxsiyyətin zədələnir. Mən alkoqol qəbul edənlərə nə isə demirəm, onlara sataşmıram. Sözümü səhv başa düşməsinlər. Sadəcə, mənə deyilənləri danışıram.

***- "Oppalar" mövsümün ən "hit" və müzakirə olunan mahnısıdır. Lətifə Soyuöz "Atv maqazin onlarla" verilişində dedi ki, Murad sanki mahnı yazmağı unudub, "Opplar"a ancaq çimərlikdə qulaq asmaq olar.***

- Hər kəsin xoşuna gəlmək olmur. Mənim mahnımı, şəxsiyyətimi müzakirə edən insanların bəzisi səmimiyyəti ilə bəyənməyib, rəy söyləyir, bir qismi paxıllıqdan boş danışır. Bu mənim auramı zədələmir, işlərimə təsir göstərmir. Mən hansı mütəxəssisin sözü ilə işlərimdə düzəliş edəcəyimi gözəl bilirəm. Bu, mənim vokal, muğam müəllimlərimdir, dəyər verdiyim bəstəkarlardır. Onların hansı işimi bəyənmədiyini bilirəm. Mənfi rəylər "Oppalar"a olan sevgini dəyişmir. Hazırda sentyabr üçün yeni mahnı üzərində işləyirəm.

***- Roza Zərgərli isə verilişdə belə bir ifadə işlətdi: "Murad istedadlıdır, uğurları qarşıdadır, amma "star" deyil. Sizcə, "star" kimə deyilir?***

- Rozanın təsəvvüründə "star" necə olur bilmirəm. "Star" sözünü sevmədiyim üçün Rozanın fikirləri məndə qıcıq yaratmır. Yəqin ki, "star" geyimləri saç düzümü ilə seçilən, davamlı konsert verən, medianın gündəmində olan, açıq şəkildə həmkarlarını sındıran ifaçıya deyilir.

***- Toyların ən çox arzulanan müğənnisisiniz. Bəs Murad Arif konsert üçün nə zaman çalışmağa başlayacaq?***

- Konsert vermək çox çətindir. Azərbaycanda cəmi 3-4 müğənninin əlaqələri, imkanı, dostları konsert verməyə imkan verir. Məndə dostcanlılıq, görünür, azdır. Mən kimlərisə ətrafıma yığıb deyə bilmərəm ki, filankəs dostumuzdur, de, sponsor olsun. Bunu edə bilmirəm. Konsert maliyyədir. Bir konsert üçün ən azı 100 min lazımdır. Ailə babası, 3 yerdə ev saxlayan biri kimi rahatlıqla 150 mini cibimdən çıxardıb konsertə xərcləyə bilmərəm. Bunu təşkilatçılar, prodakşinlər etməlidir. Konsert vermək istəyirəm, amma yaxın 2-3 ildə görünmür.

***- Azərbaycanda tamaşaçı reallığı da var ki, xarici müğənni üçün 300 manatından keçib bilet alır, amma yerli sənətçilərə 30-40 manat verməyə əli gəlmir...***

- Təəssüf ki, belədir. Bizə qıymırlar. Birlik, dəstək, inam yoxdur, mənfi axtarırıq. Baxırsan ki, həkimdir, müəllimdir. Mahnı işıq üzü görən kimi böyük post yazır. Ay qardaş, xoşun gəlmir, səhifəni izləmə. Nə məcburdur ki, könül bulandırırsan? Şərh yazmağa sərf etdiyin vaxtı övladlarına ayır, kitab oxu, açıq havada gəz.

***- 2018-ci il qalmaqallarla gəldi və davam edir. Qalmaqalları izləyirsinizmi? Şou-biznesimizi necə dəyərləndirirsiniz?***

- İlin təsirindəndir. Mənim də adım qalmaqallarda hallandı. Bu gün bizim Rəhim Rəhimlinin başçılıq etdiyi "MUZ TV"miz, Chatbox və "ARB ulduz" kanallarımız var. Digər kanallarımız da mahnılarımızı, kliplərimizi yayımlasalar, inkişafı görəcəklər. Bir az da mənim sayəmdə, artıq müğənnilərdə klip çəkməyə meyllilik yaranıb. İşləmək lazımdır. Mən işləyirəm, həm də işlədirəm. Baxırlar ki, Murad klip çəkdi, faydasını gördü, onlar da çəkirlər.



**"Susa bilmirəm, mən valideynəm, övlad böyüdürəm"**

***- Vətəndaş mövqeyi olan bir neçə müğənnidən birisiniz. Sosial şəbəkədə yazdığınız tənqidi statuslar başınıza bəla olubmu?***

- Mən bu məsələdə bəzi media orqanlarından şikayətçiyəm. Bir neçə dəfə başlıqların qurbanı olmuşam. Bu yaxınlarda bir sosial mesaj göndərdim ki, sosial güvənciniz yoxdursa, aztəminatlı ailəsinizsə, doğulacaq uşaqlarınızın sayını öncədən düşünün, qorunun. Düşünün ki, necə uşağa sevgi, çörək, təhsil verə biləcəksiniz. Bu, cəmiyyətimiz üçün vacib mesajdır. "İnstagram" səhifələri mənim qalstuklu, "jırnı" sifətli, həyatdan və özündən razı şəklimi veriblər. Elə bil, uşaqlıqda cırıq ayaqqabıları mən geyinməmişəm. Şəkilimlə çoxuşaqlı qadının fotosunu birləşdirib, yazıblar: "Murad Arif deyir ki, pulunuz yoxdursa, doğmayın". Həmin fotonun altında minlərlə söyüş vardı. Bu cür şeylər adamı təəssüfləndirir. Bir müsahibəmdə demişəm ki, evim mənim üçün məbəddir, hər adam ora girə bilməz. Yazıblar ki, Murad Arif deyir ki, evimə yaxın qohumlarım da girə bilməz. Bu məsələlər insanı yorur. Vətəndaş mövqeyinə gəldikdə isə artıq buna dur demək istəyirəm. Mənə deyirlər ki, sənin filan idarənin rəisi ilə nə işin var, niyə tənqid edirsən? Bəlkə oğlunun toyuna səni çağıracaq, sus. Deyirəm ki, susa bilmirəm, mən valideynəm, övlad böyüdürəm. Mənim İsveçdə hər bir şəraitim var, sabah çantamı toplayıb, gedə bilərəm. Amma mən bu dildə danışıram, bu vətəni sevirəm, bu mühitdə uşaq böyüdürəm. Ona görə əyər-əskikləri demək borcumdur.

***- Murad Arif kinli biridir?***

- Kinli deyiləm. Lakin mənə qarşı edilən pislik və yaxşılıqları unutmuram. Sadəcə, çürükçü deyiləm. Mənim məhkəmələrə, davalara, qalmaqallara ayıracaq vaxtım yoxdur. O vaxtı ailəmə ayıraram.

***- Ailə demişkən, ev işlərində həyat yoldaşınıza yardım edirsiniz?***

- Yoldaşıma tapşırmışam ki, sözü açıq de. "Sən mənə kömək etmirsən" kəlmələri mənə heç nə demir. De ki, filan qabı mətbəxə qoy, xalçanı yumağa ver. Kömək edirəm. İlyarımdır ki, tədqimatlara, məclislərə getmirəm. Bir yerdən pul qazanmıramsa, ora getmirəm, vaxtımı ailəmə sərf edirəm. Evdə hər bir şeyə müdaxilə edirəm. Evdə nəyin harada yerləşdiyini, oğlumun, qızımın bağça müəllimінin adını bilirəm. Uşaqlarım "Youtube" kanalında nəyə baxıb, bağçada nə yeyib və s. Mən detalçıyam.

***- Həyat yoldaşınız sizin hansı xüsusiyyətinizi bəyənmir?***

- Telefona, internetə bağlı olmağımı bəyənmir. Bu da işimdir. Haqqımda yazılanları izləməliyəm. O, ancaq buna qıcıqlanır. Deyir ki, burada deyilsən. Işimizin məcburiyyətidir.

***- Özünüz özünüzdə nəyi bəyənmirsiniz?***

- Tənbəlliyimdən şikayətçiyəm. 1 ildə 5 klip çəkən oğlan özündən şikayətçidir. Düşünürəm ki, Murad Arif daha çox idmanla məşğul ola, daha çox mahnı yaza bilər.

***- Kişi sənətçilərin xarici görünüşünə müdaxilə etməsi də müzakirə olunan məsələlər arasındadır.***

- Mənim üst dişlərim çarpaz idi. Dostum Elnur Həsənlinin sayəsində bir müdaxilə prosesi yaşadım, ön dişlərim düzəldi. Birinci kursa qədər ağır həyat yaşamışam, qulağımın qarşısında özü boyda artıq ət vardı. Məhəllədə də, məktəbdə də hər zaman psixoloji təzyiqlər, lağ-lağı ilə rastlaşmışam. 1-ci kursda dedim ki, kompleksimdir, əti kəsdirdim. İnsan özünü rahat hiss edirsə, hər hansı prosedurdan keçə bilər. Bir də baxırsan ki, cavan oğlandır, üzünə botoks etdirib. Düşünürsən ki, gəncsən, nə vacibdir? Bir yandan da ağlına gəlir ki, o, özünü elə rahat hiss edir, sənə nə? Sən onun yaşadığı həyatı yaşamırsan. O, dəyişiklik edib rahat olursa, özü bilər. Saç boyamaqdır, sırğa taxmaqdır, bu cür şeylərə mənfi münasibət bəsləmirəm. İnsanlar azad olmalıdır, öz seçimlərini etməlidir. Mən bunun tərəfdarıyam.

❑ **Könül İBRAHİM,**
**"Yeni Müsavat"**
**Fotolar Elçin Əkbərovundur**



## Paytaxtda içkili sərnişinlərin avtobusa girişinə qadağa qoyuldu

**"BakuBus"ın istifadəsində olan avtobuslara ev heyvanlarının və içkili sərnişinlərin girişinə qadağa qoyulub. Modern.az xəbər verir ki, bu barədə "BakuBus"MMC-nin direktor müavini Azər Qasımov bildirib.**

O qeyd edib ki, qəfəs olmadan ev heyvanlarının avtobuslara girişi qadağandır: "Bu, Nazirlər Kabinetinin əsasnaməsində də əksini tapıb. Biz sürücülərimizə tapşırmışıq ki, qanunlara uyğun olaraq sərxoş halda olan sərnişinləri avtobusa götürməsinlər. Çünki vəziyyətlə əlaqədar onlar müəyyən narahatlıq yaradır ki, bu da avtobuslararası intervala təsir edir".



## "Nar" ucqar dağ kəndini mobil rabitə ilə təmin etdi

Gəlin birlikdə böyüyək

**"Nar" mobil rabitənin mövcud olmadığı Yardımlı rayonunun Arvana kəndində mobil şəbəkə qurdu. Dəniz səviyyəsindən 2000 m hündürlükdə yerləşən ucqar kənddə mobil rabitənin olmaması yerli sakinlər üçün ciddi əngəllər yaradırdı. Arvana sakinlərinin rabitə problemini həll etmək üçün "Nar" operatoru kənddə tam gücüylə fəaliyyət göstərən mobil şəbəkə qurdu.**

**Hazırda kənd ərazisində "Nar"-ın 4 baza stansiyası fəaliyyət göstərir və bütün kəndi əhatə edir. Xüsusi enerji təminatına malik "Nar" şəbəkəsi kəsintisiz fəaliyyət göstərərək əhaliyə keyfiyyətli zəng və internet xidmətlərindən istifadə etmək imkanı yaradıb.**

**Sakinlərin böyük sevincinə səbəb olan bu hadisə münasibətilə "Nar" Arvana kəndində maraqlı tədbir keçirdi. Sakinlərin görüşünə gələn "Nar" yerlilərə pulsuz nömrələr, internet və danışıq balansı və digər dəyərli hədiyyələr təqdim etdi. Yeni nömrələrini istifadə edən kənd sakinləri zəng və internet xidmətlərindən yararlanaraq, mobil rabitənin keyfiyyətindən razı qaldılar.**

**Arvana sakinləri kəndin ciddi probleminə çevrilmiş rabitə problemini aradan qaldırdığına görə mobil operatora minnətdarlığını bildirdi. Kənddən xüsusi hazırlanmış video çarxı buradan ttps://youtu.be/wse9FUCOGe4 izləyə bilərsiniz.**

**Qeyd edək ki, mobil operator, paytaxtla yanaşı, bölgələrin də yüksəkkeyfiyyətli mobil zəng və internet xidməti ilə təmin olunmasına diqqət ayırır. Təkcə 2018-ci il ərzində ölkənin 30-a yaxın şəhər və rayonlarında yeni baza stansiyaları quraraq abunəçilərin istifadəsinə təqdim edib. Bölgələr üçün xüsusi yaradılmış "Yerlim" tarifindən istifadə edən "Nar" abunəçiləri zəng xidmətlərindən çox sərfəli qiymətə - dəqiqəsi 1 qəpiyə, yararlanırlar.**

**"Nar" şəbəkəsi və tarifləri haqqında ətraflı məlumatı nar.az ar.az saytından əldə edə bilərsiniz.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.**

# Sosial şəbəkə terrorçularından necə qorunaq?

## Osman Gündüz atılması ən vacib olan addımlardan danışdı



**Tanınmış cəmiyyət mühəndislərindən biri, blogger Bəxtiyar Hacıyevə qarşı kibercinayətkarlıq edilir. Bəxtiyar Hacıyevin sosial şəbəkədə KİV-lərə istinadən yaydığı müraciətdə deyilir ki, ABŞ-da qeydiyyatdan keçmiş virtual nömrələrdən kimlərsə müxtəlif qrupları (ayrı-ayrı xanımları, kriminal keçmişi olan insanları, dindarları, gəncəliləri, sumqayıtlıları və polisləri) təhqir edir, hədələyirlər. Sonda isə bu hədə və təhqir mesajlarına onun (Bəxtiyar Hacıyevin) adını və nömrəsini yazırlar. Bəzilərinin ilk reaksiyası da B. Hacıyevi aramaq olur...**

B. Hacıyev məsələ ilə bağlı DTX-də olub, onu qəbul edib, ekran görüntülərini istəyiblər. Daha sonra isə o, DİN-ə müraciət edib: "DİN-in poçt qutusuna rəsmi müraciətimi və faktları atıb, getdim Baş Prokurorluğa, orada da poçt qutusuna atmağımı istədilər".

Maraqlıdır, bu halda sosial şəbəkə istifadəçisi nə etməlidir? Sosial şəbəkə terrorçularından necə qorunmaq olar?

**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz hesab edir ki, internet açıq mühitdir, burada müəyyən təhdidlər və təhlükələr olmamış deyil:** "Gərək hər bir adam sosial şəbəkədən istifadə edəndə bir qədər ehtiyatlı olsun ki, özünün fərdi informasiyaları başqalarının əlinə keçməsin. Müəyyən qrup insanlar var ki, sosial şəbəkədən qeyri-qanuni istifadə edirlər. Öz arzu və istəklərini yeritmək üçün qarşı tərəfi şantaj, təhqir edirlər. Bu bizdə də var, dünyada da. Ona görə də hər kəs gərək özünün informasiyasının qayğısına qalsın. Qarşı tərəfi şantaj, təhqir etmək davam edirsə, dərhal hüquq-mühafizə orqanlarına müraciət etmək lazımdır. Sosial mediada baş verənlərlə bağlı bizim məhkəmə çəkişmələri olub. Təhqirlə bağlı aidiyyəti qurumların - prokurorluq, hüquq-mühafizə orqanlarının borcudur ki, müraciətlə bağlı araşdırma aparsın. Həmin sosial media resursunun administrasiyası ilə də əlaqə saxlamaq, şikayət etmək olar. Düşünürəm ki, bunları etsək, nəticə əldə etmək olar".

**O.Gündüz bildirir ki, sosial şəbəkə terrorçularının qurbanına çevrilməmək üçün maarifləndirmə işləri artırılmalıdır:** "Eyni zamanda sosial medianın xətti ilə özümüz gərək internetin qayğısına qalaq, maarifçilik işləri görək. Bəzən insanlar törətdiyi əməllərin fərqinə varmırlar ki, cinayət törədirlər. Elə bilirlər, kiminsə şəxsi informasiyasını paylaşa bilər və ona heç nə olmaz. Ona görə də sosial media istifadəçiləri, hüquq müdafiəçiləri bunun nə ilə nəticələnə biləcəyi ilə bağlı gərək maarifləndirmə işləri aparsın. Sosial şəbəkədə başqasını təhqir edən şəxslərlə bağlı qanunvericilikdə cinayət işi düşür. Qanunvericilikdə sosial mediada təhqir və böhtanın da cinayət məsuliyyətinə cəlb olunması ilə bağlı bu yaxınlarda dəyişiklik olunub. Buna görə artıq inzibati cəza, yaxud xəbərdarlıqdan söhbət getmir, sosial şəbəkədə təhqir və böhtana görə yüksək cəza müəyyən olunur. Bəlkə də bunu edənlər törətdikləri əməldə cinayət işinin olmasından heç xəbərdar deyil. Maarifləndirmək lazımdır".

**❑ Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**



## "Bakcell"dən "Təhsil Avtobusu-2018" Yay Məktəbinin keçirilməsinə dəstək

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti 17-23 iyul 2018-cı il tarixləri arasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilən "Təhsil Avtobusu-2018" Yay Məktəbinə dəstək göstərdi.**

**"Təhsil Avtobusu" Yay Məktəbi "Azərbaycan üçün Öyrət" Milli Təhsil Proqramının Azərbaycanın müxtəlif şəhər və rayonlarını əhatə edən təhsil marafonudur.**

**"Təhsil Avtobusu - 2018" Bakı şəhərindən yola düşərək Bakı-Quba-Masallı-Şəmkir-Şəki-Qəbələ-Bakı marşrutu üzrə səyahət edir. Yay məktəbinin məqsədi bölgələrdə şagirdlərin şəxsi inkişafına stimul vermək, onların həyata fərqli baxış və dünyagörüşünün formalaşmasına təsir etmək, dərsə marağının artırılmasına şərait yaratmaqdır. Layihə çərçivəsində ölkənin 5 bölgəsindəki həm modul tipli uqcar kənd, həm də orta məktəblərinin akademik göstəriciləri zəif və orta olan 7-8-9-cu sinif şagirdləri hər biri 1 gün olmaqla təlimçi və ekspertlər tərəfindən keçiriləcək fərdi-inkişaf təlimləri və intellektual yarışlarda iştirak edəcək.**

**Sosial məsuliyyətli bir şirkət olaraq, "Bakcell" şirkəti uşaqların inkişafı və təhsilini xüsusi diqqət mərkəzində saxlayır. Şirkətin həyata keçirdiyi "Bakcell Stars" adlanan Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində hər il yüzlərlə uşağın təhsilinə və sosial rifahının yaxşılaşdırılmasına töhfə verilir. "Bakcell" şirkəti gənclərin təhsil almasına və karyera qurmasına dəstək göstərmək və beləliklə Azərbaycan gənclərinin parlaq gələcəyinə öz töhfəsini verməyə yönəlmiş uğurlu fəaliyyətini davam edəcək.**

**"Bakcell" haqqında**

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir.**

**6500-dən artıq baza stansiyası ilə "Bakcell" şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda "Best in Test" (sınaq nəticələrinə görə, ən yaxşı) adına layiq görülüb**

**"Bakcell" və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.**

**Qeyri-Bakcell abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə "Bakcell"in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.**

**Elan**

**KORÇMA MMC (1504081621) nizamnamə kapitalının azaldılaraq 3 manat müəyyən edildiyini elan edir.**

# Azərbaycanda və dünyada pensiya yaşı niyə artırılır?

## Dövlət pensiya yükünü azaltmağa çalışır

**Rusiyada pensiya yaşının artırılması əhalinin ciddi etirazlarına səbəb oldu. Bu ölkənin baş naziri Dmitri Medvedyevin 2019-cu ildən ölkədə pensiya yaşının artırılmasını elan etməsindən sonra Rusiya ərazisində kütləvi etiraz aksiyaları təşkil olundu. Etirazlar müxtəlif formalarda hələ də davam etməkdədir.**

Xatırladaq ki, yeni qərara əsasən Rusiyada kişilər üçün pensiya yaşı 65-ə, qadınlar üçün 63 yaşadək yüksəlir. Bu pensiya müddətinə keçid dövrü kişilər üçün 2028-ci ilə, qadınlar üçün 2034-cü ilədək davam edəcək. Buna qədərsə Rusiyada pensiya yaşı kişilər üçün 60, qadınlar üçün 55 idi.

Azərbaycanda isə pensiya yaşının artırılmasına ötən ilin yanvarından başlanıb. 2017-2021-ci illərdə kişilərin, 2017-2027-ci illərdə isə qadınların pensiya yaşı hər il 6 ay olmaqla artırılıb 65-ə çatdırılacaq. Kimsə işləyə-işləyə bu yaşa çata biləcəksə, həmən pensiya almaq hüququ əldə etməyəcək. Bu, asılı olacaq onun Pensiya Fondunda toplanan pensiya kapitalının məbləğindən. İşlədiyi dövrdə fonda onun üçün ödənilən sosial sığorta haqqının 85 faizini təşkil edəcək bu kapitalı böləcəklər 144 aya - yəni 12 ilə. Əgər alınan məbləğ indi 110 manat olan minimum pensiya məbləğindən az olacaqsa, adam pensiya ala bilməyəcək. Məcbur olacaq, işləməyə davam etsin ki, minimum pensiyanı ala bilsin. Minimum pensiyanı almaq üçün isə azı 25 illik iş stajı tələb olunur. Bu stajı da olmayanlar yalnız yaşa görə müavinət ala biləcəklər...

Yəni 65 yaş o adamlar üçündür ki, yüksək maaş və qanuni əmək müqaviləsi ilə işləyib, özünə yaxşı pensiya kapitalı yığa biləcək. Kim ki, əmək müqaviləsi olmadan (hazırda beləleri yüz minlərlədir) işləyir, yaxud aldığı əmək haqqının cüzi bir hissəsi rəsmiləşdirilir, onlar pensiya ala bilməyəcəklər.

Qeyd edək ki, Azərbaycanda pensiya yaşının artırılmasını əsaslandırmaq üçün məmur və deputatlarımız çox tez-tez Avropa və digər ölkələrin təcrübəsindən sitat gətirirlər. Məsələ burasındadır ki, bu nümunə gətirilən ölkələrdə pensiya yaşı ona görə qaldırılır ki, insanların ömür uzunluğu artıb, doğum əmsalı isə azalıb. Azərbaycanda əmək qabiliyyətli yaşda olan əhali cəmi əhalinin 60 faizindən yuxarıdır. Ölkədə təbii artım əmsalı azalsa da, orta Avropa göstəricisindən çox yuxarıdır. Avropa Komissiyasının proqnozlarına görə, 2060-cı ilədək Avropa Birliyi əhalisinin sayı cəmi 3 faiz artaraq indiki 507 milyon nəfərdən 523 milyon nəfərə çatacaq. Bu zaman Şərqi Avropanın Macarıstan, Polşa, Rumıniya, Sloveniya, Slovakiya, Bolqarıstan və Baltikyanı dövlətlərdə əhali sayının azalması baş verəcək.



Avropanın kişi əhalisinin orta ömrü indiki 77,6 yaşdan 84 yaşa, qadınlarınkı isə 83,1 yaşdan 89,1 yaşa çatacaq. Bu şəraitdə Birlik daxilində pensiya yaşına çatanların payı ümumi əhalinin tərkibində artacaq, 65 yaş və ondan yuxarı şəxslərin hər birinə indiki 4 nəfər əvəzinə 2060-cı ildə cəmi 2 nəfər işləyən düşəcək. Bütövlükdə qeyd olunan dövrə AB -nin əmək qabiliyyətli əhalisi (20-60 yaşlı) indiki 61 faizdən 51 faizə, say baxımından isə 211 milyon nəfərdən 202 milyon nəfərə düşəcək. Yaşı 65-dən yuxarı olanlar indiki 18 faizdən 28 faizə qədər artacaqlar. Yaşı 80 və ondan yuxarı olanların Birlik əhalisinin tərkibindəki 5 faizlik payı isə 12 faizə yüksələcək. Bu, dövlət büdcələri üçün ciddi çətinliklər yaradacaq. Demoqrafların hesablamalarına görə, yaşlı əhalinin saxlanması xərclərinin ümumi Avropa büdcəsində payı 2060-cı ilə 1,5 faiz artacaq. Buna görə də ciddi demoqrafik problemlə üzləşmiş Avropa ölkələri məcburən pensiya yaşı həddini qaldırırlar.

Belə ki, Litvada 2012-ci ilin yanvarından hər il kişilər üçün pensiya yaşı 2 ay, qadınlar üçünsə 4 ay artır. Bu artım hər iki cinsin pensiya yaşı 65-ə çatanadək davam edəcək.

Latviyada artım 2014-cü ildən başlayıb, hər il 3 ay artırılmaqla 2025-ci ildə 65-ə çatdırılacaq.

Polşada hər iki cins üçün pensiya yaşı olaraq 67 həfəflənib - kişilərdə bu yaşa 2020-ci, qadınlarda isə 2040-cı ildə nail olunacaq.

Böyük Britaniyada qadınların pensiya yaşı 2018-ci ildə kişilərə - 65 yaşa çatdırılacaq. 2046-cı ilədək isə hər iki cins üzrə pensiya yaşının 68-ə qaldırılması nəzərdə tutulur.

Almaniyada da 2029-cu ildə hər iki cins üçün pensiya yaşının 67-yə çatdırılması planlaşdırılır. Hazırda Avropada ən yüksək pensiya yaşı Danimarkada (həm kişilər, həm qadınlar üçün 69 yaş), Albaniyada (kişilər 69,5, qadınlar 64,5 yaş), İtaliyada (kişilər üçün 68, qadınlar üçün 63,5 yaş), Almaniya, Norveç və İslandiyadadır(hər iki cins üçün 67 yaş). Qalan Avropa ölkələrində pensiya yaşı kişilər üçün 61-65, qadınlar üçünsə 60-65 yaş aralığında dəyişir. Ən aşağı pensiya yaşı Fransadadır - hər iki cins üçün 60 yaş.

MDB ölkələrindən Belarusda da 2017-ci ildən pensiya yaşının artırılmasına başlanıb: kişilər üçün 60 yaşdan 63 yaşa, qadınlar üçünsə 55 yaşdan 58 yaşa. Bu proses 2023-cü ildə tamamlanmalıdır.

Ukraynada 2012-ci ildən başlayaraq qadınların pensiya yaşı hər il 6 ay artırılır - məqsəd 2021-ci ildə onu kişilərlə (60 yaş) bərabərləşdirməkdir.

Qazaxıstan isə 2018-ci ildən başlayaraq qadınların pensiya yaşını artırmağa başlayacaq - 2027-ci ildə qadınlar da kişilər kimi 63 yaşda pensiyaya çıxacaqlar - buna qədərsə qadınların pensiya yaşı 57 idi.

Gürcüstanda qadınlar üçün pensiya yaşı 60, kişilər üçünsə 65-dir.

Göründüyü kimi, bizimlə eyni statusda olan dövlətlərin heç birində pensiya yaşı bizdəki qədər yüksək deyil. Hökumət hesab edir ki, Azərbaycanda orta ömür uzandığı üçün 65 yaşdan pensiyaya çıxan qadın-kişilər rahatlıqla 12 il pensiya ala biləcəklər - yəni 77 yaşadək yaşayacaqlar.

Yeri gəlmişkən, 12 illik pensiya müddəti beynəlxalq standartların tələbidir. Yəni bu gün pensiya yaşı hər iki cins üçün 70 olan Yaponiyada orta ömür müddəti 80-83 yaşdır. Hazırda dünyada ən çox uzunömürlülər də bu ölkədədir.

Rəsmi statistikaya görə, bizdə kişilərin orta ömür müddəti 72 yaş, qadınların 75 yaşdır. BMT-nin hesablamalarına görə, Azərbaycanda orta ömür müddəti ondan da az - 70 ildir. Müstəqil ekspertlər hesab edirlər ki, Azərbaycanda pensiya yaşının artırılması hakimiyyətin yaşlı insanların sosial yükünü və problemlərini öz üzərinə götürməkdən imtinası deməkdir.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli isə deyir ki, pensiya yaşının qaldırılmasının ziyanlı tərəfi yoxdur: **"Çünki insanların ömrü uzanıb. Sağlamlıqları buna imkan verir".**

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**



# 70 yaşlı Ramiz Əzizbəyli: "Heç kimdən heç nə gözləmirəm"

**Dünən Azərbaycanın teatr və kino aktyoru, rejissor, Xalq artisti Ramiz Əzizbəylinin doğum günü idi. Xalq artistimizin 70 yaşı tamam olub. Modern.az saytı doğum günündə yubilyarla əlaqə saxlayaraq, təəssüratlarını öyrənib.**

"70-ci ömrü qarşılamağı Tanrı mənə nəsib etdi. Nə deyə bilərəm ki! Baxmayaraq ki, bu gün mənim özəl günümdür, amma xalqıma rahat və firavan həyat arzulayıram. Təbii, deyə bilmərəm ki, səhhətimdə hər şey qaydasındadır. Amma içimdən gələn səs bunları deyir. "Əlayam", "əlayam", "əlayam"".

Xalq artisti doğum günündə ona edilən təbrikləri də dilə gətirib. "Artıq dünən (srağagün-red.) axşamdan yaxın dostlar zəng edib xoş sözlərini deyirlər. Hətta sadiq tamaşaçılar var ki, onlar da bu günümdə məni unutmayıblar. Hamı çox sağ olsun. Millətimin qadasını alım, başına dönüm. Tanrı hər birinə yar olsun", - deyə o bildirib.

**"70 illik yubileyinizdə gözlədiyiniz nəsə varmı" sualına Ramiz Əzizbəyli özünəməxsus tərzdə cavab verib:** "Düzünü desəm, heç kimdən heç nə gözləmirəm. Kimlərsə nəsə versə, alaram, əllərini geri qaytarmaram. Amma verməsələr də sağ olsunlar. Əsas odur ki, həyatın mənasını anlaya bilək. Qalanı boşdur".

Ramiz Əzibəyli 1948-ci il iyulun 20-də Bakı şəhərində anadan olub. M.A.Əliyev adına ADİİ-nun mədəni-maarif fakültəsini bitirib. 1987-ci ildə "Debüt" studiyasının çəkdiyi "Pirverdinin xoruzu" qısametrajlı bədii filmi ilə rejissorluq fəaliyyətinə başlayıb. Film bir neçə beynəlxalq kinofestivalda müvəffəqiyyətlə iştirak edib, Kiyev şəhərində keçirilən ümumittifaq festivalında isə rejissor debütünə görə mükafata layiq görülüb.

1991-ci ildə o, "Bəxt üzüyü" tammetrajlı bədii filmini çəkib. Film kinoteatrlarda nümayiş olunan ən baxımlı kassa filmi və Azərbaycanın yeni tarixində çəkilən ilk ən gəlirli kino işi kimi yadda qalıb. Film Daşkənddə keçirilən Asiya və Latın Amerikası ölkələrinin kinofestivalında xüsusi diploma layiq görülüb.



# Ailə quracağı qadına qarşı dələduzluq edənə 8 il verildi

**Gürcüstandan Bakıya gətirilən aksiz markasız siqaretlərin satışını həyata keçirən şəxs hakim qarşısına çıxarılıb. O, bir neçə nəfərə qarşı külli miqdarda dələduzluq edərək pullarını ələ keçirib. Aldatdığı şəxslərdən biri də ailə həyatı quracağı xanım olub.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda ittiham edilən Samir Abbasovun cinayət işi üzrə məhkəmə iclası başa çatıb. Hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən məhkəmə iclasında hökm oxunub. Hökmə əsasən S.Abbasov 8 il müddətinə azadlıqdan məhrum edilib.

İttihama görə, Samir Abbasov Azər Cəlilovdan siqaret alveri etmək adı ilə 112 min manat alıb. Bir neçə ay qazanc versə də sonradan vədinə əməl etməyib. Digər zərərçəkmişlər Xalidə Quliyeva və Aytən Quliyeva da eyni məqsədlə Samir Abbasova pul veriblər.

Samir Abbasov elan olunmuş ittihamla özünü qismən təqsirli bilib. O, zərərçəkmişlərdən Xalidə Quliyeva və Aytən Quliyevadan aldığı pulları təsdiqləyib. Amma Azər Cəlilovdan qeyd edilən qədər məbləğdə pul almadığını söyləyib. İndi borclu olduğu məbləği isə azadlığa çıxacağı halda ödəyə biləcəyini deyib. Hakim bildirib ki, Xalidə Quliyeva və Aytən Quliyeva onlara dəymiş zərərin ödənməsi barədə notariusdan təsdiqlənmiş sənədi məhkəməyə təqdim ediblər. Samir Abbasova qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) maddəsi ilə cinayət işi açılıb.

**❑ İlkin MURADOV, Musavat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 156 (7045) 21 iyul 2018



## Saqqız çeynəmək insanı niyə çirkinləşdirir?

Alimlərin apardıqları araşdırma nəticəsində çox saqqız çeynəyən insanlarda ağızın ətrafında qırışlar yarandığı üzə çıxıb. Vaşinqtondan olan kosmetik cərrah Ema Sanderamın sözlərinə görə, saqqız çeynəyən zaman çənə əzələləri lazım olduğundan artıq yüklənir və nəticədə həmin nahiyədə qırışlar yaranır. Bu, dərinin öz elastikliyini itirməsinə də aparıb çıxarır. Bundan başqa, saqqız çeynəməyin gənclərdə baş ağrıları və miqrenə səbəb olduğu məlum olub. Xroniki baş ağrıları olan və gündə 1-6 saat saqqız çeynəyən gənclər arasında aparılan araşdırmaların nəticəsində belə qənaətə gəlinib. Alimlər gənclərdən 1 ay ərzində saqqız çeynəmələrini istəyib. Saqqız çeynəməyi bir müddət tərk edənlərin baş ağrılarının tamamilə itdiyi, bəzilərinin isə müntəzəmliyinin və şiddətinin azaldığı müşahidə edilib. Yenidən saqqız çeynəməyə başlayan gənclərin qısa müddətdən sonra baş ağrıları yenidən başlayıb. Nəticədə saqqız çeynəyərkən alt çənə oynağının çox işləməsi və yorulmasının baş ağrılarına səbəb ola biləcəyi açıqlanıb. Alimlər xroniki baş ağrılarından əziyyət çəkənlərə saqqız çeynəməməyi tövsiyə edir.

# Banan kartofun və çörəyin yerini tutacaq



**BMT-in Ərzaq Təhlükəsizliyi Komitəsi yeni bir araşdırmanın nəticələrini açıqlayıb. Nəticələrə görə, yaxın illərdə milyonlarla insanın əsas qida maddəsi banan olacaq və bununla da kartofun yerini tutacaq. Ən rahat soyuq iqlimlərdə yetişən kartofun istehsalı sırf qlobal istiləşməyə görə zərbə alacaq. Mütəxəssislər bu səbəbdən düşünür ki, iqlimdəki bu dəyişikliklər sayəsində hazırda kartof yetişdirən ölkələr bundan sonra kartofa keçəcək. Sənədi hazırlayan professorlardan Filip Thornton, BBC'yə açıqlamasında deyib ki, "Bu, sehrli bir çıxış yolu deyil. Amma temperaturun yüksəldiyi bölgələrdə banan yetişdirmək yaxşı çıxış yoludur". Bundan başqa, ən kalorili üç dənəli bitkinin - darı, un və buğdanın istehsalı da gələcəkdə azalacaq.**

# Uşağın xarakteri körpəlikdə necədirsə, böyüyəndə də elə olur

**Amerikalı alimlər hesab edirlər ki, yeni doğulmuş körpənin davranışı onun gələcəkdə necə insan olacağı haqda məlumat verə bilər.**

Ekspertlər ABŞ-da son onillik ərzində apardıqları tədqiqatlardan sonra bu nəticəyə gəliblər. Belə ki, alimlərin fikrincə, körpənin ilk aylarda göstərdiyi davranış xüsusiyyətlərinin onun gələcək şəxsiyyətində də yaranacağı ehtimalı böyükdür.

Son 10 il ərzində amerikalı alimlər 135-dən çox körpənin böyüməsini və inkişafını müşahidə ediblər. Hər altı aydan bir onlar uşaqları müəyyən testlərdən keçirərək, ilk müşahidə zamanı əldə edilən nəticələrlə müqayisə ediblər.

Körpələr üç qrupa bölünüb: temperamentlərinə görə "çətin" və "asan" olanlar, üçüncü qrup isə "asta inkişaf edən temperament" adlandırılıb. Eksperimentin nəticələrinə görə, uşaqların 90%-i ilk aid edildiyi qrupda da qalıb.

Beləliklə, alimlər müəyyən ediblər ki, həqiqətən də uşaqların körpəlikdə göstərdikləri davranışlara görə onların gələcək davranışlarını da müəyyən etmək mümkündür.





## İtalyanlar məşhur şirniyyat brendini Çinə satdılar

**İtaliya mətbəxinin məşhur şirniyyat brendi olan "Tiramisu" da iqtisadi böhran qarşısında məğlub olaraq çinlilərə satılır. "Tiramisu" şirniyyatı ilk dəfə 60 il öncə Cənubi İtaliyanın Treviso şəhərindəki Alle Becherie kafesində satışa çıxarılıb. Daha sonra Romadakı şirniyyat dükanı olan "Pompi" tərəfindən haqları alınıb və "Həqiqi Tiramisu" adı altında istehsalı bu günə qədər davam edib. Pompi şirniyyat evinin sahibi Roberto Pompi 1971-ci ildən bu günə qədər "Başqa şöbəmiz yoxdur" deyərək xidmət göstərir və son iki ildir ziyanla işlədiyini açıqlayır: ""Pompi"ni öncə ruslar almaq istədi. Amma qiymətdə razılaşa bilmədik. İndi isə çinlilər çox yaxından maraqlanır. İlin sonuna qədər anlaşma ola bilər".**

Bununla da bir italyan əfsanəsi olan tiramisu "Çin əsarəti"nin altına keçir.




**QOÇ** - Riskdən uzaq olun. Aldığınız hər bir təklifi dönə-dönə fikir süzgəcindən keçirin. Uğursuzluğunuza görə ulduzlara söyməkdənsə, səhvlərinizi aradan qaldırın. Məsləhətə ehtiyacınız var.

**BUĞA** - Kifayət qədər gərgin gündür. Ən xırda səhviniz və ya mübahisəniz uzunmüddətli başağrınıza səbəb ola bilər. Odur ki, maksimum tədbirli və ehtiyatlı olmalısınız. Səhhətinizi də qoruyun.

**ƏKİZLƏR** - Fəaliyyət zəminində gərginlik hökm sürsə də, təmkin göstərməklə özünüzü ələ almalısınız. Ulduzlar yeganə uğurunuzun ailə-sevgi münasibətlərində mövcud olacağını bəyan edir.

**XƏRÇƏNG** - Təzə xəbər və təkliflər yolunuzu gözləyir. Bu səbəbdən də bir yerdə oturmaqdan vaz keçin. İndi sizə ən əvvəl münasibətləri aydınlaşdırmaq lazımdır. Düşmən də olsa, hər kəslə mülayim davranın.

**ŞİR** - Həftənin ən düşərli gününü yaşayacaqsınız. Bu səbəbdən də bəd şeyləri yada salıb ovqatınızı pozmayın. Qarşınıza çıxan bütün şanslardan yararlanın. Göy qübbəsi sizi müdafiə edəcək.

**QIZ** - Göy qübbəsi yeni əlaqə və tanışlıq üçün qarşınıza şanslar çıxaracaq. İstər dostluq-yoldaşlıq, istərsə də ailə-sevgi münasibətlərində hər şey ürəyinizcə olacaq. Amma yalan vədlər də verməyin.

**TƏRƏZİ** - Əgər bu gün büdcənizdə artım etmək fikriniz varsa, bəri başdan təxirə salın. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində sevindirici hadisə və görüşlərə hazır olun.

**ƏQRƏB** - Təxminən saat 13-ə qədər ümumi ovqatınızda gərginlik hökm sürəcək. Həmin ərəfədə daha çox istirahətə yer verin. Nahardan sonra isə əməkdaşlıq zəminində irəliləyişlər mümkündür.

**OXATAN** - Digər od ünsürlü bürclər kimi bu gün sizin də ümumi əhvalınız yüksək səviyyədə olacaq. Reallıqla ayaqlaşmaqla ötən həftələrdən qalmış problemlərinizi aradan qaldırmağa çalışın.

**OĞLAQ** - İşgüzarlığınız artdığından gün ərzində qarşınıza çıxan bütün maneələri aradan qaldıracaqsınız. Şəxsi işlərinizdə müsbət dönüş də baş verəcək. Nahardan sonrasa qonaq getməyə çalışın.

**SUTÖKƏN** - Qayğılarla dolu olan bu tarixdə iş yoldaşlarınız və ya qonşularınızla münasibətləri məcrasından çıxarmayın. Humanistlik edin. Bu gün uzaq yola çıxmaq, qonaq getmək səmərəlidir.

**BALIQLAR** - Kifayət qədər passiv təqvimdir. Qeyri-adi hansısa xeyir əldə etmək fikrindən daşının. Hətta adi sövdələşmələr üçün də uğurlu ərəfə deyil. Günün ikinci yarısı ziyarətə getməyiniz məsləhətdir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Belə həyasız oğru görülmədi



**Türkiyənin İzmir şəhərində ilginc oğurluq hadisəsi baş verib. B.A adlı 35 yaşlı qadının evinə girən oğru həmin an yatan ev sahibəsini oyandırıb. "Abla, bir dəqiqə bura baxsana" deyə ev sahibini çağıran oğru daha sonra öz xahişini də deyib. "Mən yan tərəfdəki xidmətçi qadının oğluyam. Əsgərəm, öz hərbi hissəmə gedəcəm. Mənə 50 lira (25 AZN) verə bilərsən?" Bu xahişdən şoka girən ev sahibəsi oğruya cəmi 20 lira (10 AZN) verib. Sonradan isə məlum olub ki, bu, gəncin eyni taktika ilə ilk oğurluq hadisəsi deyil. O, daha öncə də yaşlı bir qadının evinə girərək, "məni oğlunuz göndərdi, 100 lira verin" deyib.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100